

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Numan Kurtulmuş: "Türkiyə hər bir platformada Azərbaycanın yanındadır"



4


# SƏS

№ 197 (6880)

27 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik


## "Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir"




2

*PREZİDENT İLHAM ƏLİYEV: "Qaradağ Günəş Elektrik Stansiyasının açılışı əlamətdar hadisədir"*

# Böyük müharibə anonsu



5

## İnternet, yoxsa çap mediası?



9

### YAP-ın təşəbbüsü ilə Qubada şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçiriləcək

4

### Bəhruz Quliyev: "Çinin Gansu New Media Qrupu ilə əməkdaşlıq haqqında memorandum imzalanacaq"



4

## Dönərxanalar insan sağlamlığı üçün ölüm saçır!



16

## Ağıllı telefonlar ağılsızların əlində olanda...



12




# “Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir”

*PREZİDENT İLHAM ƏLİYEV: “Qaradağ Günəş Elektrik Stansiyasının açılışı əlamətdar hadisədir”*









***Bəli, bu gün müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu strategiya xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşınma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə olunmasını və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.***

## «ƏMİNƏM Kİ, BU, BÖYÜK BİR YOLUN, İKİ QARDAŞ ÖLKƏNİN BÖYÜK YOLUNUN BAŞLANĞICIDIR»

Bəli, ötən ilin martın 15-də təməli qoyulan 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının qısa müddətdə - oktyabrın 26-da rəsmi açılışı, dövlət başçımızın söylədiyi kimi tarixi əlamətdar hadisədir.

Təməlqoyma mərasimində dövlətimizin başçısı bildirmişdir ki, bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür: «Ötən ilin martında biz Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tariximizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır».

## «BU GÜN BİZ NİSBƏTƏN QISA ZAMANDA, TƏXMİNƏN İL YARIMDAN BİR QƏDƏR ÇOX MÜDDƏT ƏRZİNDƏ ABŞERON YARIMADASININ BU BOŞ HİSSƏSİNİN YAŞIL ENERJİ MƏNBƏYİNƏ ÇEVRİLDİYİNİ GÖRƏNDƏ ÇOX QÜRUR DUYURUQ. BU, ƏLAMƏTDAR NAİLİYYƏTDİR»

Dövlət başçısı Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə görə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə “Masdar”ı, onun rəhbərliyini təbrik edib: «Bu gün biz nisbətən qısa zamanda - təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə “Masdar”ı, onun rəhbərliyini təbrik etmək istərdim».

Bu gün qonaqlar arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin üç nazirinin yer aldığını vurğulayan Azərbaycan Prezidenti bunun tərəfdaşlığın və dostluğun yaxşı nümunəsi olduğunu, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirdiyini bildirib.

## «AZƏRBAYCANIN BƏƏ İLƏ BƏRPAOLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ ƏMƏKDAŞLIQ ÜÇÜN BÖYÜK PLANLARI VAR»

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib: «Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməyə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün biz çox qısa zamanda 1 giqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq».

*Ardı Səh. 3*

# “Biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir”

## *PREZİDENT İLHAM ƏLİYEV: “Qaradağ Günəş Elektrik Stansiyasının açılışı əlamətdar hadisədir”*





Əvvəli-Səh-2

Dövlətimizin başçısı onu da bildirib ki, bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir: «Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 giqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq».

Bunun regionun enerji inkişafında tam bir inqilab olacağını diqqətə çatdıran dövlət başçısı qeyd edib ki, Azərbaycan dünyada ilk dəfə 19-cu əsrin ortalarında neftin istehsal olunduğu ölkədir: «İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir».

### «NÖVBƏTİ İLLƏRDƏ BİZ MİLLİ ENERJİ ŞƏBƏKƏMİZİ GÜCLƏNDİRƏCƏK DÖVLƏT PROQRAMINI İCRA ETMƏYİ PLANLAŞDIRIRIQ»

Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib ki, Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir: «Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür».

Dövlət başçısı vurğulayıb ki, hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir.

«Eyni zamanda, biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik», - Prezident İlham Əliyev əlavə edib.

«Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq. Bu, çox zəruridir».

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Ölkəmizin təbii sərvətlərinin istifadəsi üçün böyük potensialın olduğunu deyən dövlətimizin başçısı külək enerjisinin potensialını xüsusi vurğulayıb: «Külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir. Bunu ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır».

### «SON GEOSİYASİ DƏYİŞİKLİKLƏR NƏTİCƏSİNDƏ AZƏRBAYCAN QAZINA AVROPADA HEÇ VAXT OLMADIĞI QƏDƏR DAHA ÇOX EHTİYAC VAR»

«Bərpaolunan enerji sahəsinə investisiyalar Azərbaycana böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə olunur». Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib.

«Bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var», - deyə dövlətimizin başçısı qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev daha sonra bildirib ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk.

Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarının istismara verildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq.

“Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub”, - deyə Azərbaycan Prezidenti əlavə edib.

Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir. Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq. Bunun regionun enerji inkişafında tam bir inqilab olacağını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan dünyada ilk dəfə 19-cu əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

“İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir”, - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycanın Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3.500 kilometrlik qaz boru kəmərini vaxtında istismara verdiyini xatırladan Prezident İlham Əliyev deyib ki, bu, daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaq.

Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi “Azərbaycan Respublikası Hökuməti ilə “Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni, “Azərbaycan Respublikası Hökuməti ilə “Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni və “Azərbaycan Respublikası Hökuməti ilə “Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”ni imzaladılar.

Dünən həmçinin Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, investisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, “Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi daxildir.

Prezident İlham Əliyev, ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin tədbirdə iştirakına görə bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığını çatdırmağı xahiş etdi. Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı.

Prezident İlham Əliyev bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi və gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığı ifadə etdi. O bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi qüdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.

Sultan Əhməd Əl-Cabir vurğuladı ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirdi, eyni zamanda, vurğuladı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsinin yaradılması işinə sadiqlik nümayiş etdirir.

Bir sözlə, bütün bunlar onu göstərir ki, Azərbaycan həm də enerji keçidi ilə bağlı qlobal çağırışların uğurla reallaşdığı ölkələrdəndir və bundan sonra da uğurları daha çox olacaq. Mərasimdə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir çıxış edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə salıblar. “Masdar” şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olunub. Sonda xatirə şəkli çəkdirildi.

**RƏFİQƏ KAMALQIZI**

# Numan Kurtulmuş: "Türkiyə hər bir platformada Azərbaycanın yanındadır"



Milli Məclisin sədri Sahibə Qafarova Ankarada Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşla görüşüb. Sahibə Qafarova hazırda bəzi təşkilatlarda Azərbaycana və Türkiyəyə qarşı reallıqdan uzaq məlumatların yayılmasını, qərəzli, birtərəfli münasibət göstərilməsini tənqid edib. O, Ermənistanın Qərbdəki havadarlarının rəsmi İrəvanın bu yalan iddiaları əsasında Azərbaycana qarşı ittihamlar irəli sürdüklərini bildirib. Onun sözlərinə görə, bir sıra beynəlxalq parlament təşkilatlarının, xarici ölkə parlamentlərinin qəbul etdikləri anti-Azərbaycan qətnamələrində bu dairələrin izləri açıq-aşkar görünür. Halbuki onlar Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam etmiş işğalına, 1 milyondan artıq soydaşımızın Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşərək, öz doğma torpaqlarından didərgin salınmasına, şəhərlərimizin, kəndlərimizin dağıdılmasına, tarixi, mədəni və dini abidələrimizin yerlə-yeksan edilməsinə bu illər ərzində bir dəfə də olsun münasibət bildirməyiblər.

Milli Məclisin sədri bu cür bədnam kampaniyalara qarşı birgə addımların atılmasını, həmçinin beynəlxalq parlament təşkilatlarının sessiyalarından əvvəl nümayəndə heyətlərimiz arasında müntəzəm görüşlərin, məsləhətləşmələrin daha da gücləndirilməsini, dost ölkələrin nümayəndələri ilə təmasların artırılmasını zəruri hesab edib.

Türkiyənin hər platformada Azərbaycanın yanında olduğunu söyləyən Numan Kurtulmuş artıq keçmişdə qalmış Ermənistanla Azərbaycan arasında münaqişənin ölkəmizin iradəsi və gücü sayəsində həll olunduğunu, Azərbaycanın öz ərazi bütövlüyünü və ədaləti təmin etdiyini söyləyib.

O, ATƏT-in Minsk qrupunun uzun illər fəaliyyətsizliyini və problemin həlli üçün heç bir iş görmədiyini xatırladıb. Hazırda Azərbaycanın haqlı mübarizəsini əngəlləməyə çalışan dövlətlərin və bəzi lobbi dairələrinin olduğunu söyləyən TBMM sədri Azərbaycanın diplomatiya sahəsində də qələbə qazanacağına inamını ifadə edib.

# Bəhruz Quliyev: "Çinin Gansu New Media Qrupu ilə əməkdaşlıq haqqında memorandum imzalanacaq"



***Çin Xalq Respublikasının Azərbaycan səfirliyinin təşəbbüsü ilə "Bir kəmər, bir yol" layihəsinin 10 illiyi münasibətilə media nümayəndələrinin Çinə səfəri davam edir. SİA xəbər verir ki, 12 media təmsilçisinin iştirak etdiyi səfər çərçivəsində Çinin 3 şəhərində tanışlıq və müxtəlif görüşlər keçiriləcək.***

Səfər iştirakçıları dünən "Gansu Daily Newspaper Group"da olub və media nümayəndələri ilə görüşüblər. Diqqətə çatdırılıb ki, şirkətin tərkibində agentlik, onlayn qəzet, radio və s. fəaliyyət göstərir. Ümumilikdə isə 7 adda qəzet fəaliyyətdədir və gündəlik 170 min tirajla dərc olunur.

Görüşdən sonra SƏS Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev Çinin aparıcı media orqanı olan Gansu New Media Qrupuna müsahibə verib. B.Quliyev müsahibədə faydalı əməkdaşlıq barədə sualları cavablandırıb, eyni zamanda perspektivlər haqqında öz fikirlərini bölüşüb. O, gələcəkdə informasiya mübadiləsi haqqında təkliflər irəli sürüb və bu barədə Gansu New Media Qrupunun rəhbərinin də fikirlərinin müsbət olduğunu diqqətə çatdırıb. Bəhruz Quliyev həmçinin, tezliklə sözügedən bu Media Qrupları arasında Memorandum imzalanacağını da bildirib. Xatırladaq ki, səfər oktyabrın 22-dən 30-dək davam edəcək.

Qeyd edək ki, "Bir kəmər, bir yol" region üçün qlobal əhəmiyyət daşıyan layihələrdən biridir. Burada söhbət Çindən başlayan və Avropaya qədər uzanan yoldan gedir. Çinin xüsusən Avrasiya regionundakı ölkələrlə ikitərəfli və çoxtərəfli iqtisadi-ticari əməkdaşlığının genişlənməsinə dəstək məqsədi daşıyan bu təşəbbüsü 2013-cü ildə elan edilib. Çin ilə Azərbaycan xalqları arasında böyük tarixə malik dostluq münasibətləri nəticəsində ölkəmiz bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, özünün iqtisadi potensialı, əlverişli coğrafi mövqeyi, eləcə də nəqliyyat-logistika imkanları ilə onun icrasına önəmli töhfələr verir.



# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabrın 26-də YAP Beyləqan rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayonun Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonra Ulu Öndər Heydər Əliyevin gənclərə olan diqqət və qayğısından bəhs edən filmə baxılıb.

# YAP-ın təşəbbüsü ilə Qubada şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçiriləcək

**"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə oktyabrın 28-29-da Quba rayonunda şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçiriləcək. YAP İdarə Heyətinin üzvü, akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun şöbə müdiri, professor Tofiq Cahangirovun rəhbərliyi ilə Quba Rayon Mərkəzi Xəstəxanasında keçiriləcək aksiya çərçivəsində Rəngli-Doppler exokardioqrafiya, EKQ, USM və laborator müayinələr, endokrinoloq, nevropotoloq konsultasiyaları təşkil olunacaq.**

Quba ilə yanaşı, Şabran, Qusar, Xaçmaz və digər bölgələrdən olan şəhid ailəsi üzvləri və qazilər də bu aksiyadan yararlana biləcəklər.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə indiyə qədər Sabirabad, Saatlı, Kürdəmir rayonları və Lənkəran şəhərində bu qəbildən olan aksiyalar keçirilib.

# Böyük müharibə anonsu

## Yaxud Fransa niyə diktatorluğu seçir?

***1947-ci ildə BMT-də Fələstinin yəhudi və ərəb dövlətlərinə bölünməsinə və Qüdsün (Yerusəlimin) BMT nəzarəti altında xüsusi statusa malik ayrıca bir şəhərə çevrilməsinə səs verildi. Bu plan yəhudi liderləri tərəfindən qəbul edilsə də, ərəblər buna razı olmadıqları üçün İsrail dövlətinin yaranmasına qarşı çıxmaqla yanaşı, Fələstin dövlətini də yaratmadılar. Bu tarixdən 76 il keçir.***




Yəni 76 ildir ki, Yaxın Şərqdən top-tüfəng səsləri gəlməkdədir. İsraillə qonşusu ərəb dövlətləri ilə açıq müharibələri də az olmayıb. Lokal müharibələrin sayını isə bilən yoxdur. İlk baxışda belə görünə bilər ki, ərəblər dövlət qura bilmirlər, ya da buna cəhd etmirlər. Yox, əgər belə olsaydı, dünyada 21 ərəb dövləti olmazdı. Onlar dövlət qurmağın yollarını bilirlər, lap ingilislər kimi.

Zaman-zaman iki tərəf arasında görüşlər keçirilib, bəzən sülhə çox yaxınlaşıblar. Amma hansısa qüvvələr yenidən münaqişəni alovlandırmağı bacarıblar. 4 noyabr 1995-ci ildə İsrailin sülhə imza atmış Baş naziri İshak Rabinin bir yəhudi ekstremisti tərəfindən öldürülməsinin arxasında da həmin güclərin dayandığı istisna deyil. 2000-ci illərdə sülh prosesini canlandırmaq cəhdləri edildi, o cümlədən 2003-cü ildə dünya gücləri tərəfindən son məqsədi iki dövlətli həll olan yol xəritəsi hazırlandı, lakin bu heç vaxt həyata keçirilmədi. Sülh səyləri nəhayət 2014-cü ildə Vaşinqtonda israillilərlə fələstinlilər arasında danışıqların nəticəsiz qalması ilə dayandı. Ən son sülh planı Donald Tramp prezident olduğu zaman ABŞ tərəfindən hazırlandı. Baş nazir Netanyahu onu "əsrin müqaviləsi" adlandırdı, lakin plan fələstinlilər tərəfindən rədd edildi və heç vaxt qəbul olunmadı.



Bəs israillilərlə fələstinlilər arasında əsas problemlər nədir və kimlər bundan faydalanır? Hər iki tərəfin razılaşa bilmədiyi bir sıra məsələlər var. Bunlar fələstinli qaçqınların taleyinin necə olması, işğal edilmiş İordan çayının qərb sahilindəki yəhudi məskənləri qalması, yoxsa sökülməsi, Qüdsün ikiyə bölünməsi və ən çətini, Fələstin dövləti yaradılması suallarına aydınlıq gətirilməsidir.

Keçmişdə baş verənlərin məntiqi nəticəsi olaraq bu gün Yaxın Şərqdə baş verən qanlı hadisələrə dünya birliyinin münasibəti necədir? Əlbəttə, səmimi, həqiqətən sülhyaratma missiyasına sadiq dövlət tapmaq bir az çətindir. Demək olar ki, yoxdur. Məsələn son hadisələrdə ABŞ, Avropa Birliyi və digər Qərb ölkələri HƏMASın İsrailə qarşı hücumlarını pisləyib. İsrailin ən yaxın müttəfiqi olan ABŞ bu illər ərzində yəhudi dövlətinə 260 milyard dollardan çox hərbi və iqtisadi yardım edib və əlavə avadanlıq və sursat vəd edir. ABŞ həmçinin Aralıq dənizinin şərqinə bir təyyarə gəmisi, digər gəmilər və reaktiv təyyarələr göndərdiyini bildirib.



Rusiya və Çin HƏMASı qınamaqdan imtina edib və münaqişədə hər iki tərəflə əlaqə saxladıqlarını bildiriblər. Rusiya prezidenti Yaxın Şərqdə sülhün olmamasında ABŞ siyasətini günahlandırıb. Regional güc İran isə HƏMASın, eləcə də İsrailin digər regional düşməni Livanın "Hizbullah" hərəkatının əsas dəstəkçisidir. İranın bir neçə gün əvvəl hücumlara icazə verdiyi barədə xəbərlərdən sonra Tehran hücumlarla hər hansı əlaqəsi olmasını təkzib edib.

Deməli, adı keçən bütün dövlətlərin maraqları bu qanlı olayların başlamasına və indiki şəkil almasına böyük "yardımçı" olub. Əgər belə olmasaydı, fələstin və yəhudilərin kütləvi şəkildə həlak olmasına seyrçi qalmaz, problemi yalnız iki tərəfin maraqları çərçivəsində həll olunmasına çalışardılar. Təəssüf ki, bu, belə deyil. Fransa kimi imperializmin ta özəyi olan qeyri-regional ölkələr burada meydan sulayır, tərəfləri sülhə yox mühatibəyə təhrik edirlər. Yelisey Sarayının indiki "kənxudası" Makron Makron beynəlxalq koalisiyaya XAMAS-a qarşı mübarizəyə başlamağı təklif edib. Makron məsələni yerində müzakirə etmək üçün İsrailə səfər edib, sonra isə Fələstin lideri Mahmud Abbasla görüşüb. ABŞ-ın təşkilatçılığı ilə Misirdə baş tutan görüşdə isə İsrail nümayəndəsi iştirak etməyib. Yəni, buna səmərəsiz görüş də demək olar. Vaşinqtona qayıtdıqdan sonra Bayden Yaxın Şərqdəki hadisələri şərh edərkən bildirib ki, "hələ müharibəni dayandırmağın vaxtı deyil". Buradan belə nəticə çıxarmaq olar ki, ABŞ, Fransa və ümumilikdə Qərbin yanaşması bölgədə sülhü bərpa etmək, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırmaq yox, müharibəni daha da alovlandırmağa yönəlib. Qərb sülhdə maraqlı deyil. Makron sülh təklif etməkdənsə müharibə variantına üstünlük verir. Bu əslində Fransanın xarici siyasətinə tam uyğundur və nə qədər barbar, diktator olduğuna işarədir. Fransa eyni siyasəti Cənubi Qafqazda da həyata keçirməyə cəhd göstərir. Bunun üçün Ermənistanı silahlandırır, müharibə təşviqatı aparır, məğlub ölkənin rəhbərlərini əvəzçıxmaya həvəsləndirir.

### Bəs İrəvan nə istəyir, sülh, yoxsa..?

Ermənistan sürətlə silahlanır, desək bir az yanlış olar, ermənilər arxa-dayaq axtarır. Onların əvəzindən müharibə aparan, pulunu xərcləyən, onları yedirən-içirən, qayğısı ilə məşğul olan, bəsləyən "dayə"yə ehtiyacları var. Bu günə qədər himayədarları Rusiya idi, onları Asiya çöllüklərindən, Şərqi Avropanın zibilliklərindən toplayıb Qafqaza gətirmişdilər. Onlara torpaqlar, ərazilər verən, adam edən, bütün ehtiyaclarını ödəyən çar Rusiyası bu ikiayaqlı məxluqlara vədlər də vermişdilər. "Vəfalı dost", etibarlı təbəə rolunu məharətlə oynamağı bacaran ermənilərə türk torpaqlarında, həm də bərəkətli torpaqlarda dövlət qurmalarına hərtərəfli yardım edəcəklərinə də söz vermişdilər. Və bunu etdilər də. I Pyotrun başlatdığını onun hərəmi və daha sonra onun oğulları və proletariat diktaturasına rəhbərlik edənlər davam etdirdilər. Ta ki, ermənilər üzə durana, "sahibləri"nin üzünə ağ olana qədər.

Ermənistan 44 günlük müharibədə məğlub olandan sonra "maşa tutan"ını dəyişmək qərarına gəlib və bunu reallaşdırmaqdadır. Rusiyanın qucağından hələ də düşməyən Ermənistanın Fransa ilə yeni izdivaca necə girəcəyi sirrxuda olaraq qalır. Məsələ burasındadır ki, Moskva İrəvanın talağını geri oxutmaq fikrindən çox uzaqdır. "De-fakto" bu, mümkün də deyil, çünki pozuluşmaq üçün əldə etdiklərindən imtina etməlisən. Əgər Azərbaycan torpaqları üzərində qurulmuş bu dövləti ermənilərə "cehiz" olaraq veribsə, izdivac pozulanda onu geri qaytarmalıdır. Belə görünür ki, ermənilər nəyin fərqində olduqlarını dərk etməkdə çətinlik çəkirlər.

Ardı Səh. 6

# Böyük müharibə anonsu







Əvvəli-Səh-5

### Fransa-Ermənistan "cütləşmə"si necə baş verir?

Fransa Ermənistana hərbi texnika, o cümlədən radar sistemləri və hava hücumundan müdafiə sistemləri satdığını elan edib. Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirib ki, bu texnika "müdafiə xarakteri daşıyır" və yalnız "Ermənistan ərazisinə təcavüzə" cavab olaraq istifadə edilə bilər. Lekornu Ermənistanın müdafiə naziri Suren Papikyanla birgə keçirdiyi mətbuat konfransında deyib ki, Ermənistan Fransanın "Thales" müdafiə qrupundan üç "Ground Master 200" (GM200) radar sistemi alacaq. Artıq Ukraynada istifadə olunan bu sistem yaxşı aşkarlama imkanları ilə tanınır. Nazirlər, həmçinin, "Thales" və Avropanın raket istehsalçısı MBDA şirkətlərinin iştirakı ilə Ermənistanın hava hücumundan müdafiə sistemləri almasına dair niyyət protokolu imzalayıblar. Lekornu və Papikyan arasında keçirilən görüşdən sonra Fransa və Ermənistan müdafiə sahəsində ikitərəfli əməkdaşlığa dair sənəd imzalayıb. Görüşdə eyni zamanda yeni imkanlar, müdafiə sistemlərinin əldə edilməsi, hərbi, təhsil, təlim, təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər sahələrdən bəhs olundu, həmçinin ikitərəfli əməkdaşlığa dair sənədlər imzalanıb.

Ermənistan-Fransa ikitərəfli müdafiə əməkdaşlığı və regional təhlükəsizlik məsələləri də müzakirə edilib. Ermənistanın müdafiə naziri fransalı parlamentarilərə milli və Avropa platformalarında əməkdaşlığın inkişafına və ermənipərəst fəaliyyətə kömək etdiklərinə görə təşəkkür edib. Gün ərzində nazir Papikyan "Les Invalides" Hərbi Əlillərin Reabilitasiyası və Veteranlara Dəstək Mərkəzinə baş çəkib, mərkəzin fəaliyyəti ilə tanış olub.

### Fransanın Azərbaycanla bağlı yeni qorxusu

Fransa Ermənistana hava hücumundan müdafiə sistemləri kimi hərbi ləvazimatları satır, Fransa hökuməti bildirib ki, "Azərbaycan Qarabağı ələ keçirməsindən sonra qonşusunun ərazisinə hücumları davam etdirə biləcəyinə dair qorxular artıb". Politico nəşri isə ABŞ dövlət katibi Antoni Blinkenin ifadə etdiyi narahatlıqlardan yazıb və qeyd edib ki, "bu, Azərbaycanın regional ambisiyalarının sonu olmaya bilər, indi bütün diqqətlər Ermənistanın İranla sərhədi boyunca uzanan Zəngəzur dəhlizindədir. Təhlükə ondan ibarətdir ki, Bakı qüvvələrinin növbəti addımı Türkiyə, Rusiya və İranın əsas strateji maraqlarının olduğu regionda Cənubi Qafqazda daha geniş münaqişəyə səbəb ola bilər". Paris hələ də Blinkenin məhz belə dediyinə inanır. Halbuki, bu fikirlər Blinkendən çox "Politoco"nun uydurmasıdır. Axı, müharibə, yaxud yeni gərginlik üçün bəhanə tapılmalıdır...

Bütün bunları bəhanə edən, Avropanın ən böyük erməni diasporuna malik ölkə olan Fransa kənarda durmaq fikrində olmadığını açıq şəkildə bildirib. "Biz eyni hərbi və siyasi ittifaqların bir hissəsi olmasaq belə, sadə prinsipə əsaslanan bu müdafiə əlaqəsini nəzərdə tuturuq: siz özünüzü və mülki əhalinizi qoruya bilməlisiniz", - Fransanın müdafiə naziri Sebastien Lekornu erməni həmkarı Suren Papikyan keçirdiyi birgə mətbuat konfransında deyib.

Qərbdən artan siyasi dəstək Ermənistanın Rusiyadan uzaqlaşmağa çalışdığı bir vaxtda baş verir. İrəvan hesab edir ki, Moskvanın başçılıq etdiyi KTMT hərbi blokunun üzvü olmasına baxmayaraq, ölkənin Rusiya prezidenti Vladimir Putindən Azərbaycana qarşı münaqişədə kömək çağırışları qulaqardına vurulub. Baş nazir Nikol Paşinyan keçən ay "Politico" nəşrinə verdiyi müsahibədə bildirib ki, Moskvaya arxalanmağı dayandırmağın vaxtı çatıb.

Paris ötən ilin sentyabrında İrəvanla müdafiə sahəsində əməkdaşlığı gücləndirməyə başlayıb, lakin Qarabağ ətrafında baş verən son hadisələr Fransanın hərbi əlaqələri dərinləşdirmək istəyini sürətləndirib. Ötən ay Paris Fransanın Ermənistandakı səfirliyinə hərbi attaşe göndərib. Eyni zamanda Ermənistan "Thales" şirkətinin istehsalı olan üç "Ground Master 200" radarını - Rusiyanın təcavüzünə qarşı mübarizə üçün Ukraynaya tədarük edilən eyni radarları və Safrandan durbin və sensorlar da daxil olmaqla digər avadanlıq almaq üçün müqavilə imzalayıb. Ermənistan və Fransa MBDA tərəfindən istehsal olunan "Mistral" hava hücumundan müdafiə sisteminin alınması prosesinə başlamaq üçün niyyət protokolu da imzalayıblar.

Lekornu bildirib ki, Fransa hərbi təlim kimi məsələlərdə məsləhət vermək üçün yaxın aylarda Ermənistana hərbi instruktorlar göndərəcək. Fransa həmçinin erməni əsgərlərinə təlim keçəcək və "kor nöqtələr"i müəyyən etmək üçün İrəvana Ermənistanın hava hücumundan müdafiəsini sınaqdan keçirməyə kömək edəcək. Lekornu Fransa silahlarının müharibəyə başlamaq üçün istifadə oluna biləcəyi ilə bağlı ittihamlara qarşı çıxıb. "Satdığımız silah öz xarakterinə görə yalnız Ermənistan ərazisinə təcavüz zamanı yerləşdirilə bilən sistemlərdir. Heç kim suveren dövləti onun səmasını və onun altında yaşayan insanları qoruduğuna görə günahlandıra bilməz", o əlavə edib.

Ermənistanda düşünürlər ki, İrəvan və Paris arasında planlaşdırılan hərbi-texniki sövdələşmə Rusiya və KTMT-nin Ermənistana alternativ təchizatda maneə olması barədə mifi dağıtdı. Ermənistan ordusu tezliklə Fransadan gələn silahlarla doldurulacaq. Əslində, Ermənistan müasir tarixdə ilk dəfə olaraq Qərbin ən böyük silah istehsalçılarından biri ilə müqavilə bağlayır. Gələcək müqavilələri oktyabrın əvvəlində Fransanın xarici işlər naziri Catherine Colonna elan edib. Daha sonra oktyabrın 21-də ölkənin müdafiə naziri Sebastien Lekornu bəyan edib ki, Paris və İrəvan Fransa silahlarının, xüsusən də hava hücumundan müdafiə sistemlərinin alınmasına dair razılaşmaları rəsmiləşdirəcəklər. Oktyabrın 23-də isə iki ölkənin müdafiə nazirləri Parisdə hərbi əməkdaşlığa dair sənədlər imzalayıblar.

Sövdələşməyə gəlincə, politoloq və təhlükəsizlik üzrə ekspert David Arutyunov vəziyyəti təhlil edərkən başa düşülməli olan bir neçə vacib aspekti vurğulayıb. Arutyunovun sözlərinə görə, Ermənistan-Fransa sövdələşməsi qəti şəkildə sübut edir ki, Ermənistanın Fransadan silah almaq üçün xüsusi institusional maneələri olmayıb və yoxdur. Erməni cəmiyyətində uzun müddətdir ki, KTMT-nin Ermənistanın Qərb silahlarını almasına mane olması ilə bağlı yayılan rəvayət hər hansı əsasdan daha çox daxili siyasi xarakter daşıyırdı. "Bizdə KTMT üzvü kimi Amerika hərbi bazasına ev sahibliyi edən və ABŞ-la müəyyən hərbi əməkdaşlıq proqramları həyata keçirən Qırğızıstan nümunəsi var. Bunun əksi isə keçmişdə NATO üzvü olmaqla Rusiyadan silah və hərbi texnikanı aktiv şəkildə alan Yunanıstandır", - deyə Arutyunov bildirib.

Onun fikrincə, əgər söhbət mürəkkəb silah sistemlərinin, məsələn, hərbi təyyarələrin alınmasından gedirsə, Rusiya və ya KTMT faktoru maneə ola bilər. Qərb ölkələrindən döyüş təyyarələrinin alınması məxfilik, texnologiyanın ötürülməsi və s. baxımından problemli ola bilər. Arutyunov xatırladıb ki, Türkiyə Rusiyadan S-400 zenit-raket kompleksləri aldıqdan sonra bir vaxtlar kollektiv Qərb və xüsusən də ABŞ Ankaranı F-35 qırıcılarının istehsalı və alınması proqramından kənarlaşdırıb. Tərəflər Fransanın Ermənistana tədarük edəcəyi konkret silah çeşidini açıqlamasa da, çox güman ki, söhbət diplomatik çətinliklərə səbəb olmayan bəzi yerli sistemlərdən gedir.

Erməni ekspert güman edir ki, Ermənistanın əsas müttəfiqi Rusiya ilə hərbi texnika sahəsində əməkdaşlığı bu gün də davam edir. Ola bilsin ki, hazırda müxtəlif səbəblərdən ciddi tədarük yoxdur, lakin Ermənistanın arsenalında mövcud olan silahların əsas hissəsinin Rusiya/Sovet mənşəli olduğunu nəzərə alsaq, bu sahədə iki ölkə arasında əlaqələr qorunub saxlanılıb və gələcəkdə də mövcud olacaq. Bura təmir, texniki xidmət və digər gündəlik aspektlər daxildir. Rusiyanın tədarükünün guya olmamasının səbəblərinə gəlincə, ekspert məsələni Ukrayna münaqişəsi kontekstində nəzərdən keçirir. Rusiya hərbi-sənaye kompleksinin imkanları demək olar ki, tamamilə öz ehtiyaclarını ödəməyə yönəlib və bu səbəbdən də Moskva İrəvanla imzalanmış müqavilələri ən azı vaxtında yerinə yetirməyib.

Daha bir məqama diqqət yetirməyə dəyər, Ermənistan rəhbərliyi müəyyən dərəcədə özü Rusiya Federasiyasına qarşı, o cümlədən silah təchizatı kontekstində informasiya kampaniyasına başlayıb. Belə bir kampaniya hakimiyyət qarşısında aşağıdakı vəzifələri həll edir: Qərbin dəstəyini təmin etmək, Rusiya Federasiyasının mövqeyini dəyişdirmək və onu müqavilə öhdəliklərini yerinə yetirməyə məcbur etmək, Ermənistan cəmiyyətinə onların təhlükəsizlik sahəsindəki uğursuzluqlarını və səhvlərini izah etmək.

Fransanın silah tədarükü kontekstində logistika problemlidir. Ermənistanın qonşularından yalnız iki ölkə nəzəri cəhətdən silahların öz ərazisindən tranzitinə icazə verə bilər - İran və Gürcüstan. İranın Fransa ilə münasibətləri indi, xüsusən də İsrail ətrafında baş verənlər fonunda kifayət qədər gərgindir və çətin ki, İran tərəfi Fransadan silah daşınması üçün "dəhliz" açsın. Gürcüstana gəlincə, bu, həm Qərbdən, həm də Türkiyə-Azərbaycan tandemindən asılıdır, ona görə də Tiflisə hər iki tərəfdən təzyiqlər olacaq. Problemin sonda necə həll olunacağını demək hələlik çətindir.

Digər tərəfdən, təbii ki, müqavilələrin icra müddətindən də çox şey asılıdır. Çatdırılmaların sabah və ya o biri gün başlayacağını düşünmək olmaz. Silah müqavilələri həmişə həyata keçirilməsi üçün uzun müddət lazımdır. İstisna deyil ki, tədarük başlanana qədər regionda vəziyyət bir qədər fərqli olacaq və o zaman mövcud vəziyyət bu problemi həll etməyə imkan verəcək. Paris Vaşinqton kimi Ukraynanın hərbi yardım göstərmək planında fəal iştirak etmir, baxmayaraq ki, fransız tərəfi müəyyən sistemləri Kiyevə ötürür. İkinci amil Ermənistanla Fransa arasında hərbi-texniki əməkdaşlıq üçün müəyyən ilkin şərtləri təmin edən ənənəvi sıx münasibətlərdir.

Bəli, Ermənistanın addımlarında bir məqsəd var, Rusiyadan qurtulmaq. Özünə yeni dost axtaran erməni dövləti əvvəlcə əzəli sahibindən qurtulmalıdır ki, yenisinin hakimliyini maneəsiz qəbul edə bilsin. Bu, mümkündürmü? Çətindir, amma mümkünsüz deyil, yalnız böyük müharibələri də gözə almaq lazımdır. Ermənistan necə, buna hazırdırmı?

**V.VƏLİYEV**

# AĞALI: yurd Vətənə, yurddaş yurda qovuşub...

*Söz vaxtına çəkər, deyib atalarımız, düz 30 il əvvəl oktyabr ayının 25-29-da Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın əhalisi son anadək vuruşaraq, 235 nəfər şəhid və itkin verərək Araz çayı vasitəsilə İran İslam Respublikasının ərazisinə keçdi, buradan Azərbaycanın müxtəlif rayonlarına gedərək məskunlaşdılar. Öz mövcudluğunun son illərində bu bölgə 1992-ci ilin dekabrında baş verən və analoqu olmayan Şayıflı qırğınını və bir də nəhayət, 1993-cü ilin 27 oktyabrını yaşadı. Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 67 gün tam mühasirə şəraitində ermənilərlə vuruşmalarına baxmayaraq Zəngilan işğala məruz qaldı. 20 oktyabr 2020-ci il tarixində isə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildi.*

əbədi yaşamağın mümkünsüzlüyü, haqqın nazildiyinin, lakin üzülmədiyinin mesajıdır.

### 2021-ci ilin 20 oktyabrı

Həmin gün- Böyük Zəfərimizdən hələ bir il ötməmiş dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə idilər və rayonun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış oldular.

İlk “Ağıllı kənd” layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulmuşdu. Layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işlərinə başlanılmışdı. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə həyata keçirilirdi. Burada yeraltı aparılmışdı. “Ağıllı kənd”də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulmuşdu ki, fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq.

2022-ci il mayın 27-də- Müstəqillik Günü ərəfəsində Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi oldu. Dövlətimizin başçısı çıxış edərək demişdir: 1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır. Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə




rəqqi bir addım atmışıq.

Bilirəm ki, Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur. Ona görə yeni layihə təqdim edildi. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – “ASAN”, “DOST”, kiçik və orta biznesə dəstək, hər şey burada var. Bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda





### Ağalıya növbəti köçlə...

Oktyabrın 26-da Azərbaycanın ilk “ağıllı kənd” i olan Ağalıya növbəti köçlə xatırladıq bu tarixi... Xatırladıqca da baxmayaraq ki, bütün torpaqlarımızı işğaldan azad etmişik, yenə də ürəyimiz sızladı. Ötən illər yada düşdükcə gözlərimiz doldu. Soydaşlarımızın üzləşdiyi faciələr bir-bir gözlərimiz önündə sıralandı. Oktyabrın 25-29-u payızın sazaqlı günləridir. Belə sazaqlı günlərdə Arazı keçməyi düşünəndə adam lap dəhşətə gəlir. Ünvanı bəlli olmayan bir yolçuluğa çıxmışdı onlar. Hara gedirdi zəngilanlılar, hara üz tutmuşdu, harada dayanacaq, harada məskunlaşacaqdılar, bunlar məlum deyildi.

Düz 27 illik bir ayrılıq gözləyirdi qarşıda onları: yurd, torpaq həsrəti, köçkünlük həyatı... Beləliklə, 27 il zəngilanlılar nankor qonşumuzun tamahı ucbatından məcburi köçkün həyatı yaşamalı oldu. Şükürlər olsun ki, 2020 və 2023-cü illərdə Qarabağ və Şərqi Zəngəzur düşməndən tamamilə azad edildi. Üzümüz güldü, hicran vüsala çevrildi.

Budur, həmin dövrdən bizi 30 illik bir zaman kəsiyi ayırır. Bu gün Zəngilanın “ağıllı kənd”i Ağalı növbəti sakinlərini qoynuna aldı. Bu köçün oktyabrın bu günlərinə təsadüf etməsi isə düşmənə tutarlı mesajdır- sənin olmayan torpaqda



kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işləri görülür, park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşırdı. Piyada və velosiped yolları çəkilir, bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılırdı.

Burada kənd təsərrüfatının təşkili və inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilmiş və lazımi innovativ texnikaların siyahısı hazırlanmışdı. “Ağıllı kənd” layihəsi üçün əkin planı hazırlanmış, planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilmiş və əkin üçün hazırlığa başlanmışdı. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər

xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində Qələbə qazandıq, tarixi Qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq.

Dövlətimizin başçısı daha sonra çıxışında demişdir: Əlbəttə ki, bunu artıq bilməyən yoxdur, birinci pilot layihə məhz Zəngilanda icra edildi, Ağalı kəndində. Bir il bundan əvvəl inşaat işləri başlamışdır. İndi 200 evdən ibarət gözəl kənd salınıb - “Ağıllı kənd”. Bu gün bu kəndlə tanış olarkən, - bilirsiniz, mən dəfələrlə burada olmuşam, - görürəm ki, doğrudan da böyük, necə deyərlər, mütə-

inşaat işləri daha sürətlə gedəcək. Mən sizi tarixi hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

### 19 iyul 2022-ci il: Ağalıya ilk köç

Həmin gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa – Zəngilan rayonunda “ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanıldı.

Vurğulayaq ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər). Prosesin ilkin mərhələsində 41 ailənin kəndə köçürülməsi nəzərdə tutulmuşdu. Burada vətəndaşların məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən təmin olunur.

Kənddə reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə edilir. Kənddə DOST Agentliyinin “Şərqi Zəngəzur və Qarabağ” proqramı

çərçivəsində “Smart DOST” xidmət məntəqəsi də fəaliyyətə başlayıb.

Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Qəsəbədə, eyni zamanda, “Azərpoçt” MMC-nin rayon şöbəsi, “ASAN xidmət” və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub.

Beləliklə, sakinlərin dövlət xidmətlərinə rahat çıxışı gerçəkləşib, onların “ASAN” və ya “DOST” xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayıb. Həmçinin kənddə Ailə sağlamlıq mərkəzi, uşaq bağçası, həmçinin kənd tam orta məktəbi də sakinlərin istifadəsində olacaq.

### Ağalı, 26 oktyabr 2023-cü il: 150 ailə, 744 nəfər

30 il öncə Zəngilanın ermənilər tərəfindən işğal olunduğu, soydaşlarımızın ata-baba yurdundan zorla çıxarıldığı oktyabr günlərində rayonun Ağalı kəndinin sakinlərinin doğma yurdlarına qayıdışının zaman etibarilə üst-üstə düşməsi bir qərinəyə yaxın dövrün o başı ilə bu başındakı fərqliliyi ortaya qoymaqla, eyni zamanda ölkəmizin qüdrətini şərtləndirir.

Oktyabrın 26-da Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə növbəti köç karvanı yola salınıb. Bu günədək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 17 ailə - 95 nəfər bundan sonra doğma yurdda yaşamağa başlayacaq. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridir.

Ağalı sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Beləliklə, Zəngilanın 30 il sonrakı oktyabrında Ağalıya qayıdış həm də rəmzi bir məna da ifadə edir: torpağın əsl sahibinin kim olduğunu və haqq-ədalətin kimin tərəfində olduğunu... Yeni köçlə burada daimi məskunlaşdırılan ailələrin sayı 150 ailə, 744 nəfərə çatır. Qayıdış növbəti mərhələlərdə davam etdiriləcək. Ağalılıların hamısı öz evlərinə geri dönəcəklər. Çünki Qarabağ və Şərqi Zəngəzur da dövlətimizin həyata keçirdiyi böyük siyasətlə anası Azərbaycana qovuşub. Necə deyərlər, yurd Vətənə, yurddaş yurda qovuşub...

***Mətanət Məmmədova***



# Vaşinqtonun Orta Asiyada yeni oyunu

## *NATO Rusiyaya şərqdən yaxınlaşır*

***NATO Rusiyanı çəmbərə alır, qərbə gedən yollarını qapadır. Rusiyanın qərb istiqamətində demək olar ki, dostu qalmayıb. Qonşuları xoş, ya da zorla Rusiyanın rəqiblərinin təsiri altına düşür. Finlandiya və İsveçin NATO-ya üzv olması bu istiqamətdə Şimali Atlantika Alyansının planlarını sona çatdırıb. Ukrayna və Gürcüstanın da geri dönüşü gözlənilmir. Ermənistan ikili oyunu ilə Qərbə "sadiqlik" rolunu məharətlə oynayır. Rusiya isə bu səhnələrə sadəcə tamaşa etməklə işini bitmiş hesab edir. Bəlkə də bütün bunlar Kremlin gələcək planları ilə üst-üstə düşür. Amma Qərbin Orta Asiyaya nüfuz etməsi isə…***






Qazaxıstan hərbçiləri NATO standartlarına uyğun olaraq sülhməramlı əməliyyatlarda iştirak edəcəklər. Bu barədə respublikanın müdafiə idarəsi bildirib. Kreml dost ölkədən gələn məlumatlara təmkinlə reaksiya verir. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov yalnız qeyd edib ki, sülhməramlı missiyaların özünəməxsus xüsusiyyətləri var. ”Ümid edirik ki, dostlarımızdan əlavə məlumat alacağıq” deyib.

Oktyabrın 25-də Qazaxıstan Respublika Gününü qeyd edib. Rusiya Prezidenti Vladimir Putin prezident Kasım-Jomart Tokayevə ünvanladığı təbrik teleqramında Qazaxıstanın mühüm beynəlxalq problemlərin həllinə mühüm töhfə verdiyini qeyd edib. Onun sözlərinə görə, respublika dünya miqyasında layiqli nüfuza malikdir və Rusiya-Qazaxıstan münasibətləri yüksək səviyyədədir. "Əminəm ki, strateji tərəfdaşlıq və müttəfiqliyin daha da möhkəmləndirilməsi, MDB, Aİİ, KTMT və ŞƏT çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətin artırılması xalqlarımızın əsas maraqlarına cavab verir, Avrasiya qitəsində təhlükəsizlik və sabitliyin təmin olunmasına uyğundur", - Putin vurğulayıb. Tokayevə möhkəm cansağlığı və uğurlar arzulayıb.

Onlar Sülhməramlı Əməliyyatlar Mərkəzində respublikada konfrans zalı açaraq Qazaxıstan və ABŞ nümayəndələrinə hədiyyə təqdim ediblər. Amerika səfirliyindən bir gün əvvəl sosial şəbəkədə bunun ABŞ-ın dəstəyi ilə Qazaxıstanın beynəlxalq sülhməramlıların hazırlanması üçün imkanlarını genişləndirmək məqsədi daşıyan növbəti layihə olduğu ilə bağlı bir mesaj yayılıb. ”Birləşmiş Ştatlar təhlükəsizliyin, firavanlığın və sülhün qorunması maraqları naminə Qazaxıstanla əməkdaşlıq etməkdən qürur duyur", - Amerika diplomatik xidməti qeyd edib. Ekspertlər bu addımı Qazaxıstanla ABŞ-ın yaxınlaşmasının simvolu kimi qiymətləndiriblər.

Qazaxıstan hakimiyyəti 1992-ci ildə, respublika Şimali Atlantika Əməkdaşlıq Şurasına üzv olanda əlaqələr qurulmuş NATO hərbi bloku ilə əməkdaşlıqda maraqlıdır. Alyansla münasibətlər 1994-cü ildə imzalanmış "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədinə əsaslanır. O vaxtdan Qazaxıstan müntəzəm olaraq birgə hərbi təlimlərdə iştirak edir. 2006-cı ildə Qazaxıstan Müdafiə Nazirliyinin Xarici Dillər İnstitutunda tədris mərkəzi açılıb. 2022-ci ildə isə yenidən Qazaxıstan Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinə təyinat alıb. Buradakı hərbi qulluqçular sülhməramlı əməliyyatlarda iştirak etmək üçün dil və hərbi təlimlər keçirlər. Qazaxıstanlılar 2014-cü və 2015-ci illərdə Qərbi Sahara və İraqda sülhməramlı missiyalarda iştirak ediblər.

Etno-Milli Strategiyalar Agentliyinin direktoru Aleksandr Kobrinski mətbuata açıqlamasında deyib ki, kimin nə deməsindən asılı olmayaraq, Qazaxıstan NATO çətiri altına girir: "Qazaxıstan müdafiə sektorunda NATO ölkəsi Türkiyə ilə əməkdaşlıq edir, ölkə ərazisində pilotsuz uçuş aparatlarının və digər NATO silahlarının birgə istehsalı zavodu açılıb. Şimali Atlantika Alyansı Qazaxıstandan keçərək Xəzər dənizinə daxil olur, burada məlum olduğu kimi, beş ölkə arasında razılaşmaya görə, altıncı qüvvə olmamalıdır. Bundan əlavə, alyans Çindən gələn, Qazaxıstan, Xəzər dənizi və onun hüdudlarından kənara çıxan nəqliyyat marşrutlarına nəzarət edəcək".

Ekspert sual edir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olan ölkəyə NATO-nun sülhməramlı mərkəzi nə üçün lazımdır?: "NATO üzvləri 2022-ci ilin yanvar ayında baş verən Kantara hadisələri zamanı olduğu kimi daxili münaqişələrdən qoruna bilməz. Qazaxıstan NATO üzvü deyil və yaxın gələcəkdə ola bilməz. Ona görə də alyans onun təhlükəsizliyinə təminat verə bilməz və verməyəcək. Ancaq problemlər yarada bilər. Əgər sülhməramlı mərkəz varsa, deməli sülhməramlı əməliyyatlar aparılmalıdır. Bunun baş verməsi üçün haradasa sülh olmamalıdır. Bu gün Qazaxıstan dost dövlətlərin əhatəsindədir, lakin yəqin ki, bəzi dost ölkələrdə münaqişələr tezliklə başlayacaq".

Kobrinskinin fikrincə, NATO-nun məqsədi bütün Orta Asiyada nəzarəti ələ keçirməkdir. Onun sözlərinə görə, təsadüfi deyil ki, ABŞ Mərkəzi Komandanlığının komandanı general Maykl Kurilla mütəmadi olaraq regiona səfər edir. O, son üç ildə üç dəfə Qazaxıstanda olub, bu yaxınlarda isə Özbəkistanda olub. NATO üzvləri Qırğızıstana Türkiyə ilə hərbi əməkdaşlıq yolu ilə daxil olur. Bişkek Türkiyənin Bayraktar pilotsuz təyyarələrini və digər silahlarını tədarük edib. Elə bir vəziyyət yaranır ki, Qərb Orta Asiyanı münaqişələr və müharibələr istiqamətində aparmağa çalışır.

Hərbi ekspert Viktor Litovkin hesab edir ki, Vaşinqton regionda hərbi təsirini artırmağa çalışır. Ekspert istisna etmir ki, ABŞ geosiyasi rəqiblərinə, ilk növbədə Rusiya və Çinə qarşı durmaq üçün Orta Asiyada qərbyönlü hərbi blok yaratmaq niyyətindədir: "Qazaxıstanda sülhməramlı mərkəzin açılması yalnız onu göstərir ki, Astana Ukrayna və Ermənistandakı vəziyyətdən heç bir nəticə çıxarmır. Ukraynada baş verənlər Qazaxıstanda da təkrarlana bilər. Bunun Qazaxıstanın milli maraqlarına cavab verməsi ehtimalı azdır. Amma bu, onların daxili işidir. Onlar başa düşməlidirlər ki, NATO və amerikalılarla flört etmək Qazaxıstanın təhlükəsizliyini gücləndirməyə və Rusiya ilə münasibətlərini gücləndirməyə xidmət etmir".

Hərbi ekspertin fikrincə, ABŞ heç vaxt sülhməramlı kimi özünü göstərməyib. "Siz başa düşməlisiniz ki, Birləşmiş Ştatlar heç vaxt əməkdaşlıq etdiyi dövlətin maraqlarından çıxış etmir. Onlar yalnız öz siyasətlərinin maraqlarından çıxış edirlər. Belə olan halda, onlar Qazaxıstanla, eləcə də Orta Asiyanın digər ölkələri ilə işləyirlər ki, onları Rusiyadan qoparsınlar, Rusiya ilə qarşı-qarşıya qoysunlar", - Litovkin əminliklə bildirib. O hesab edir ki, həm Rusiya ilə NATO, həm də Qazaxıstanla NATO arasında dialoq mümkün deyil. Amma seçim Qazaxıstan rəhbərliyinin ixtiyarındadır.

Qazaxıstanda isə əksinə, onlar Ukrayna hadisələrinin təkrarlanmasından qorxurlar, çünki Rusiya siyasətçiləri və ekspertləri bir neçə dəfə Qazaxıstanın müəyyən ərazilərinə nə dərəcədə iddialı olduqlarını göstəriblər, yüksək tribunalardan bu barədə bəyanatlar veriblər. Baxmayaraq ki, Tokayev Qazaxıstanın bundan narahat olmağa əsas olmadığını bəyan edib, amma vəziyyət gərgindir. Rusiyada ekspertlər Ukraynada xüsusi əməliyyatın keçirilməsinin səbəblərini xatırladırlar. Xəbərdarlıq edirlər ki, "əgər Qazaxıstan da anti-Rusiya siyasəti apararsa, o zaman Rusiya Qazaxıstanda rusdilli əhalinin müdafiəsinə qalxmalı ola bilər. Əgər Qazaxıstan özünü Rusiya üçün təhlükə yaradacaq şəkildə apararsa, o zaman Rusiyanın buna reaksiya verməsi təbiidir".

Rusiyada Qazaxıstanın hərəkətlərini qeyri-dostluq kimi qiymətləndirənlər də az deyil. Onlar hesab edirlər ki, Qazaxıstan Rusiyaya sanksiya tətbiq edilən malları tədarük etməkdən imtina edir və Rusiya Federasiyasının Qərb blokadasını dəstəkləyir: "Astanaya yardım əlini uzatmağı dayandırmağın və özünü mülayim aparmağın vaxtı çatıb. Ancaq biz gedən kimi və ya çox uzağa gedən kimi bu çöl ölkəsində NATO olacaq". Məsələ burasındadır ki, Astananın hərəkətlərində və seçimində səbəbsiz heç nə yoxdur. Qazaxıstan ya potensial müttəfiqləri arasında ABŞ-ın xeyrinə seçim edib (onların arasında Rusiya, Çin və Amerika da var), ya da Astana çoxvektorlu siyasətini davam etdirir, manevr etməyə çalışır. Amma de-fakto, NATO artıq şərqdən Rusiyanın sərhədlərindədir və bunun üçün heç kim günahkar deyil.

**V.SALAH**

BAKIKURS






# İkinci Qarabağ müharibəsi: 30 ilə bərabər 30 gün

## PREZİDENT İLHAM ƏLİYEV: "25 oktyabr bizim tariximizdə əbədi Zəfər Günü kimi qeyd ediləcək"

***2020-ci il 26 oktyabr Vətən müharibəsinin 3 ili, müharibənin başlanmasının 30-cu günüdür. Bu 30 gündə qazanılan qələbə 30 ilə uğura bərabərdir. Müharibənin 30-cu günü xalqa müraciət edən Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyev bu 30 gündə 30 il əvvəl itirdiyimiz torpaqların bir hissəsini (təxminən 1/5) cəmi bir ay ərzində geri qaytarmışıq. 30 günlük müharibə zamanı Ali Baş Komandanımız, ölkə Prezidentimiz İlham Əliyevin diplomatik siyasəti, Güclü Ordumuzun və rəşadətli əsgərdərimizin şücaəti nəticəsində mənfur düşmən tapdağından 4 şəhərimiz - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və qəsəbələri, 150-dən artıq kəndi, əhəmiyyətli strateji mövqeləri işğaldan azad edildi.Xalqa müraciətində Azərbaycan Prezidenti müharibənin 30-cu gününədək düşmənin məhv edilən texnikalarının sayını da açıqladı: «Bu müddət ərzində düşmənin xeyli sayda canlı qüvvəsi və texnikası məhv edilib.***

Düşmənin dəyəri 2 mlrd-dan çox olan texnikası, 3 mindən çox calı qüvvəsi, 252 tankı məhv edilib, 53 tank hərbi qənimət kimi götürülüb. 50 ədəd piyadaların döyüş maşını məhv edilib, 29-u qənimət kimi götürülüb. 251 ədəd müxtəlif çaplı toplar məhv edilib, 24-ü qənimət kimi götürülüb. 61 minaatan məhv edilib, 45-i qənimət götürülüb. 53 tank əleyhinə vasitə məhv edilib. 82 «Qrad» qurğusu, 2 «Uraqan», 1 TOS, 4 TOR zenit-raket kompleksi, 40-a yaxın OSA zenit-raket kompleksi, 4 KUB və bir KRUQ zenit-raket kompleksi, 2 «S-125» zenit-raket, 6 «S-300» zenit-raket kompleksi, 1 aşkaretmə stansiyası, bir lokatr, 2 «Elbrus» əməliyyat-taktiki raket kompleksi, 1 «Toçka-U» raketi, 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb".





### "ERMƏNİSTANI XİLAS ETMƏK İSTƏYİRSİNİZSƏ, DEYİN Kİ, ÇIXSIN TORPAĞIMIZDAN, DƏRHAL RƏDD OLSUN"

Azərbaycan Prezidenti müharibənin 30-cu günündə Qubadlının azad olunması ilə bağlı xalqa müraciətində bildirdi ki, bütün bu haqsızlıqlara rəğmən, artıq bir aydır ki, döyüş meydanında bizim tarixi ədaləti bərpa etdiyimizi və indi hər kəsin yeni reallıqla hesablaşması zərurətini vurğuladı. Hərbi əməliyyatların dayandırılmasına və yenidən sülh danışıqları masası arxasına əyləşməyə çağıranlara isə konkret cavab verdi: "Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın torpağımızdan, dərhal rədd olsun". Qeyd edək Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bu tarixi gündən keçən bir illiyində - oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər. Azərbaycan Prezidenti Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirib ki, bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür: "Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etdi və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək".

### QÜRUR HİSSİ YAŞADIQ

Sərəncamda da deyildiyi kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.Oktyabrın 25-i 44 günlük müharibənin gedişatında əhəmiyyətli dönüş nöqtəsi oldu. Qubadlı şəhərində ermənilər güclü istehkamlar qurmuşdular. Rayonun bəzi kəndləri - Zilanlı, Kürd Mahruzlu, Muğanlı, Alaqurşaq oktyabrın 23-də düşməndən təmizlənmişdi. Oktyabrın 25-də isə rayonun 8 kəndi ilə bərabər Qubadlı şəhəri də işğaldan azad edildi. Bu zəfər xəbərini də xalqa Prezident İlham Əliyev çatdırdı. Uğurlu hücum əməliyyatı nəticəsində noyabrın 9-dək Qubadlı şəhəri və rayonun 41 kəndi düşməndən xilas edildi.

Bu gün isə, artıq mşğaldan azad olunmuş ərazilərimizdə böyük bərpa və quruculuq işləri aparılır, dədə-baba yurdların qaçqın düşən soydaşlarımız yeniləşən və abadılaşan yurdlarına qayıdır, qürurla «Şəhər Gün»lərini qeyd edirlər. Şəhərdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalandı. Hazırda Qubadlı ərazisində minatəmizləmə əməliyyatları, quruculuq, abadlıq işləri aparılır. İndi qarşıda duran ən şərəfli mühüm vəzifə, Vətən müharibəsində əldə edilmiş qələbəni qorumaq, düşmən tapdağından azad olunmuş ərazilərimizi bərpa etmək, qurub gülüstana çevirmək və insanların tez bir zamanda doğma yurda əbədi qayıdışına zəmin yaratmaqdır. Bəli, bu gün fəxrlə deyə bilərik ki, dövlət başçımız İlham Əliyevin təkmil idarəçilik sisteminə əsaslanan uğurlu siyasəti nəticəsində artan iqtisadi və maliyyə imkanlarımız, dost ölkələrlə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi fonunda erməni faşizminin ağır yaralar vurduğu bu ərazilərimiz tezliklə, sözün əsl mənasında, cənnət-məkana çevriləcək.

Beləliklə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, az bir zamanda Qarabağ və bütün işğaldan azad olunmuş ərazilər dirçələcək, bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurdyuvalarına qayıdıb, yaşayıb-yaradacaqlar. Ancaq mənfur düşmən unutmamalıdır, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanlar öz el-obalarına geri dönəcəklər. Artıq insanlar öz el-obalarına geri dönməkdədilər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ HÜSEYNOVA**

# Rusiyalı diplomat: “Qarabağ mövzusu bitdi, amma Ermənistanın beynində qaldı”

*Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov “Moskva-Baku” portalına müsahibəsində İrəvanla Paris arasında hərbi əməkdaşlıq haqqında sazişi və bunun nəyə gətirib çıxaracağını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*



*Andrey Fyodorov: Fransadan Ermənistana silah tədarükü hələ başlanğıcdır, Vaşinqtonla İrəvan arasında saziş hazırlanır...*

**- Andrey Vladimiroviç, Ermənistan Fransa ilə silah-sursat tədarükü ilə bağlı müqavilə imzalayıb və Paris də Ermənistan hərbçilərinə hava hücumundan müdafiə sahəsində təlim keçəcək, Ermənistanın xüsusi təyinatlı qüvvələrini, snayperləri yenidən hazırlayacaq. Bu vəziyyət Rusiya üçün nə deməkdir?**

- Əsas məqam ondan ibarətdir ki, Ermənistanla siyasi münasibətlərimiz açıq-aşkar həyəcanverici sürətlə aşağıya doğru gedir. Müqayisə üçün deyək ki, Azərbaycanla əksinə, ancaq böyüyür. Qarabağ ətrafındakı vəziyyətdə isə Rusiya baş verən hər şeyi qəbul etdi. Əsas məsələ Rusiya-Ermənistan münasibətlərindəki tənəzzülün hansı səviyyəyə çatacağıdır. Təhlükəsizlik, hərbi-siyasi sahə, Rusiya Federasiyasının Cənubi Qafqazdan mümkün sıxışdırılması mövzusu Moskva üçün çox ciddi əhəmiyyət kəsb edir.

Siyasi dialoqumuzun azalması son nəticədə Ermənistanın qərbyönlü vektorunda nə qədər irəli gedəcəyi ilə bağlıdır. Paşinyanın MDB Şurasına gəlməməsi, yəqin ki, labüd olaraq ortaya çıxacaq sualla - Ermənistanın KTMT-də sonrakı iştirakı - ilə müqayisədə bağlı xırda məsələdir.

Ermənistan rəhbərliyindən İrəvanın Qərbin dəstəyi ilə ölkənin təhlükəsizlik sistemini yenidən qurmaq niyyətində olduğuna dair siqnallar var. İrəvanla Paris arasında bağlanan saziş yalnız başlanğıcdır. Daha ciddi bir razılaşma üzərində iş gedir- ABŞ-la strateji sənəd. Beləliklə, Ermənistanın bu cür tendensiyaları və atdığı addımlarla KTMT-də qalması tezliklə qeyri-mümkün ola bilər. Ermənistanın hələ ki, bunu etməyə dəyərmi deyə düşünməyə vaxtı var.

Bu, Ermənistanın “tranzit” yönləndirməsidir və müxtəlif amillərə görə yenidən dəyişə bilər. Ermənistanın özü də başa düşmür ki, gördüyü iş gəlirli, yoxsa zərərlidir. İrəvan tərəfindən bu, birincisi, Rusiyaya nəinki Ermənistanın təhlükəsizliyinin təminatçısı ola biləcəyini göstərmək cəhdidir, ikincisi, bu, həm də İrəvanın Qərbin respublikaya nə qədər sərmayə qoymağa hazır olduğunu anlamaq cəhdidir.

Eyni zamanda qeyd etmək istərdim ki, Ermənistan rəhbərliyi İrəvanın Avrasiya İqtisadi İttifaqında (AİI) iştirakının məqsədəuyğunluğundan şübhələnmir, çünki bu ittifaqa üzvlük Ermənistan iqtisadiyyatına sağ qalmağa imkan verir, sərbəst əmək miqrasiyası, vəsaitlərin köçürülməsi və daha çox imkanlar yaradır.

İndi Ermənistanın gələcək üçün inkişaf strategiyası ilə bağlı sual yaranır. Ölkənin hazırkı baş naziri Ermənistan Respublikasının bütün əvvəlki və Rusiya yönümlü strategiyasının dəyişdirilməsinin əsasını qoyur. Moskva isə buna hazırlaşmalı və bu kəskin dəyişikliyin qarşısını almaq üçün addımlar atmalıdır.

**- Yaxşı, amma Paşinyanın siyasətinin Ermənistan-Rusiya münasibətlərinə mənfi təsir etdiyini desək, o, Azərbaycan üçün, belə demək mümkünsə, uğurlu “kart” oldu.**

- Bu, doğrudur. Paşinyan isə Ermənistan üçün Qarabağ problemindən xilas oldu. Amma Qarabağ hələ də respublika üçün psixoloji ballast olaraq qalır. Qarabağ mövzusu bitdi, amma Ermənistanın beynində qaldı. Amma təəssüf ki, baş verən bütün hadisələrdən sonra Ermənistan sabitləşə bilər, lakin qonşularla konstruktiv münasibətlər və qarşılıqlı faydalı layihələrin inkişafı ilə.

**- Rusiya Ermənistana qarşı hansı taktikadan istifadə edəcək?**

- Rusiya Paşinyanla Ermənistanı ayırmağa davam edəcək. O, hazırkı baş naziri itirdiyinə görə təəssüflənmir, lakin respublikanın özünü itirdiyinə görə kədərlənir. Və o, Paşinyan haqqında deyil, Ermənistanla lazımi münasibətləri necə saxlamaq barədə düşünəcək.

**- Ermənistanda tezliklə daha çox rusiyapərəst birinin hakimiyyətə gəlməsi variantı varmı?**

- İllüziyaları əyləndirməyə ehtiyac yoxdur. Bunun üçün hələ şərait yoxdur və çox şey Ermənistanın siyasətinin hara getməsindən asılı olacaq. Məsələ kimin gələcəyi deyil. Söhbət ondan gedir ki, əgər Paşinyan daha altı ay və ya bir il hakimiyyətdə qalsa və bu müddət ərzində Ermənistanın strateji kursu başqa yollara keçsə, bu, bizim üçün ciddi problemə çevriləcək. Ermənistan kəskin şəkildə Qərbə üz tutsa, geri qayıtmaq çox çətin olacaq. İndi ruspərəst birinin gəlib deyəcəyinə inanmamalıyıq ki, biz yenidən rusiyayönlü vektora qayıdırıq. Bu baş verməyəcək. Biz bugünkü Ermənistanın reallıqlarını dərk etməliyik.

**- Dediniz ki, Ermənistanla ABŞ arasında hansısa strateji razılaşma üzərində iş gedir. Vaşinqton və Parisin vəzifələri nədən ibarətdir?**

- Təbii ki, Ermənistanı Rusiyadan mümkün qədər uzaqlaşdırmaq. Eyni zamanda, Qərb nəhayət başa düşür ki, Ermənistanı Rusiyanın əlindən almaq çətin işdir.

**- Bir neçə gün əvvəl Tehranda xarici işlər nazirlərinin “3+3” formatında görüşü keçirilib. Lavrov bildirib ki, hələ 2021-ci ildə Rusiya bu formatın inkişafı ilə bağlı sənəd təqdim edib və onun çərçivəsində onun müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi təklif olunub. Nazir qeyd edib ki, formatın bütün iştirakçıları Moskvanın təklifini bəyənib və hər bir sahə üzrə öz baxışlarını təqdim etmək üçün öz nümayəndələrini təyin edəcəklər. Formatın perspektivləri necədir?**

- Azərbaycanla Ermənistan arasında yeni münaqişə baş verməsə, bu, perspektivli olacaq. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Bakı ilə Tehran arasında münasibətlər həmişə hamar deyil, çətinliklərlə doludur. Eyni sözləri Bakı-İrəvan və İrəvan-Ankara münasibətləri haqqında da demək olar. Ancaq istəsəniz, bütün ”səhvləri” aradan qaldırmaq olar. İqtisadi istiqamət, nəqliyyat və ticarət baxımından format yaxşı işləyə bilərdi. Bundan əlavə, dünyada vəziyyətin, ümumiyyətlə, necə gedəcəyi məlum deyil.

“Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin tam şəkildə həyata keçirilməsi Rusiya üçün çox vacibdir- biz onun işləməsini və münaqişəli vəziyyətin yaranması riskinin minimal olmasını təmin etməkdə maraqlıyıq. Formatın uğurlu inkişafının açarı yalnız praktik hərəkətlərdir. Əks halda hər şey dağılacaq.

**- Sergey Lavrov da Azərbaycanla Ermənistan arasında münaqişənin həll olunduğunu bəyan etdi. İndi vəzifə, nazirin qeyd etdiyi kimi, münasibətlərin tamamilə normallaşması üçün əməli addımlardır. Sülh müqaviləsi üçün hansı perspektivlər var?**

- Ermənistan indi, ilk növbədə, Qərblə təhlükəsizlik sazişini rəsmiləşdirəcək (və artıq rəsmiləşdirir). Biz buna əsaslanaraq sülh müqaviləsinin imzalanması məsələsinə yanaşacağıq. Şübhəsiz ki, İrəvan sülh müqaviləsinə hansısa vasitəçi-qarantın daxil edilməsini istəyəcək. Hadisələrin məntiqindən çıxış etsək, İrəvan sırf Qərbin vasitəçiliyi ilə sülh sazişi imzalamağa çalışır. Ona görə də Moskvanı çətin günlər gözləyir.

***Tərcümə - Elçin Bayramlı***



# Azərbaycanın tarixi nailiyyətləri Ulu Öndərin adı ilə bağlıdır

## *Qobustan rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib*



***“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qobustan rayon təşkilatı oktyabrın 26-da “Nə qədər ki Azərbaycan var, mən də varam” mövzusunda konfrans keçirib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra Şəhidlər xiyabanı ziyarət edilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir.

YAP Veteranlar Şurasının sədr müavini, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Partiyanın bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını qeyd edən Sədaqət Qəhrəmanova bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığını xüsusi vurğulayıb.

YAP İdarə Heyətinin üzvü Asif Əsgərli söyləyib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz məktəbdir: “Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir”.

Tədbirdə Qobustan Bölgə Təcrübə Stansiyası ərazi partiya təşkilatının sədri Atabəy Cahangirov, Qobustan rayon Ağsaqqallar Şurasının sədri Şıxbala Bayramov, Vətən Müharibəsi Qəhrəmanı şəhid Elyar Vəliyevin atası Arif Vəliyev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Yusif Məmmədov, qazi Ramil Rəcəbli, Cəyirli ərazi partiya təşkilatının sədri Aynur Axundova və partiya veteranı Təhmiraz Ağaquliyev diqqətə çatdırıblar ki, Ümummilli Liderin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf etməkdədir. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub.

# Turizmin inkişaf perspektivləri



***Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyekt tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib.***

Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir. Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir.



Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Turizm sektorunda göstərilən xidmətlərin yalnız kəmiyyət göstəriciləri baxımından deyil, keyfiyyət baxımından da təkmilləşdirilməsi, turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması prosesi davam etdirilir.

Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir.

Statistik məlumatlara istinadən deyə bilərik ki, 2022-ci ildə Azərbaycana dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Vurğulamaq yerinə düşər ki, 2022-ci ilin yanvar–noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım müşahidə edilib. Azərbaycana səfər edən xarici vətəndaşlar içərisində ilk yerlərdə ardıcıl olaraq Rusiya, Türkiyə və İran gəlir. Sonrakı sıralamada Səudiyyə Ərəbistanı, Gürcüstan, Hindistan, Pakistan, BƏƏ, Qazaxıstan və digər ölkələr növbələşir. Türkiyə, Səudiyyə Ərəbistanı, Hindistan üzrə bərpa göstəriciləri 90 faizdən çoxdur. Belarus, Pakistan, İordaniya kimi ölkələr isə 2019-cu ildəki nəticələri üstələyib. Məlumdur ki, ötən il keçirilən Azərbaycan Turizm Sammitində xarici və daxili turizm üzrə növbəti 4 ilə hesablanmış hədəflər açıqlanıb. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də ”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

”Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən ”Turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi” fəaliyyəti üzrə ən azı 2 regional turizm şurasının yaradılması nəzərdə tutulub. Regional turizm şuralarının yaradılmasında əsas məqsəd turizm sektoru iştirakçılarının fəaliyyətinin mütəmadi dialoq formasında əlaqələndirilməsi mexanizminin qurulması, regional səviyyədə turizmin inkişafı ilə əlaqədar bütün tərəfləri bir araya gətirmək, əlaqələndirmək və mövcud resursları regional səviyyədə turizm inkişafına səfərbər etməkdir.

Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, ”Çıraqqala” Tarixi-Memarlıq Qoruğu, ”Şabran şəhəri” Tarixi Qoruğu, ”Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir.

## DÜNYANIN ƏN MƏŞHUR FİRMA VƏ ŞİRKƏTLƏRİNİN BRENDLƏRİ ÖLKƏMİZDƏDİR

Son illərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən ”Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, ”Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğu, ”Keşikçidağ” Dövlət Tarix-Mədəniyyət Qoruğu və ”Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. ”Qobustan” Milli Tarix-Bədii Qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır. Əlbəttə ki, bu gün abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. Ötən il bu və ya digər qoruqları ziyarət edənlərin 162 798 nəfər xarici, 178 455 nəfəri yerli vətəndaş olub.

Əlbəttə ki, Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün ”Four Seasons”, ”Fairmont”, ”Mariott”, ”Hilton”, ”Kempinski”, ”Jumeirah”, ”Sheraton”, ”Hyatt” kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən kompleks Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi turizmin inkişafına yol açıb.



## ƏVVƏLKİ İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ 33,8 FAİZ ÇOX ƏCNƏBİ VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXS ÖLKƏMİZƏ TURİST SƏFƏRİ EDİB

Statistik rəqəmlərə nəzər salsaq görərik ki, bu ilin yanvar-avqust aylarında Azərbaycana dünyanın 183 ölkəsindən 1343,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 33,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 31,7 faizi Rusiya Federasiyası, 17,7 faizi Türkiyə, 7,5 faizi İran, 4,9 faizi Hindistan, 4,7 faizi Gürcüstan, 4,4 faizi Səudiyyə Ərəbistanı, 2,6 faizi Qazaxıstan, 2,4 faizi Pakistan, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, 1,6 faizi İsrail, hər birindən 1,5 faiz olmaqla Küveyt və Ukrayna, 1,4 faizi Belarus, 1,2 faizi Türkmənistan, 1,1 faizi Böyük Britaniya, 11,9 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 69,9 faizini kişilər, 30,1 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 8,2 dəfə, Türkmənistandan 3,2 dəfə, Hindistandan 2,4 dəfə, Özbəkistandan 1,8 dəfə, Qazaxıstandan 1,8 dəfə, Belarusdan 1,7 dəfə, Rusiya Federasiyasından 1,6 dəfə, İtaliyadan 1,5 dəfə, ABŞ-dan 39,5 faiz, İsraildən 39,2 faiz, Gürcüstandan 32,9 faiz, Böyük Britaniyadan 27,0 faiz, Küveytdən 22,3 faiz, Türkiyədən 19,6 faiz, Almaniyadan 18,6 faiz, Birləşmiş Ərəb Əmirliklərindən 11,8 faiz, Ukraynadan 5,1 faiz artıb.

2022-ci ilin yanvar-avqust ayları ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 549,4 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 37,8 faiz artaraq 67,6 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 10,2 faiz azalaraq 228,4 min nəfər olub.

Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şirvan şəhərində "Gələcəyimizi ağ ölümdən xilas edək!" mövzusunda tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq oktyabrın 26-da Şirvan şəhərində "Gələcəyimizi ağ ölümdən xilas edək!" mövzusunda tədbir keçirilib.***





YAP Şirvan şəhər təşkilatının inzibati binasında baş tutan tədbirdə Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonlarını təmsil edən fəal gənclər iştirak ediblər.

Əvvəlcə Şirvan şəhər Şəhidlər xiyabanı ziyarət edilərək qəhrəman Vətən övladlarının xatirəsi hörmətlə anılıb, məzarları üzərinə tər güllər düzülüb. Sonra tədbir iştirakçıları YAP Şirvan şəhər təşkilatının inzibati binasındakı Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini dərin hörmət və ehtiramla anıblar.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Dövlət Təhlükəsizliyi Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Mehman Qasımov, Şirvan şəhər Polis şöbəsinin rəisi, polis polkovniki Fizuli Əhmədov və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, sağlam cəmiyyətin formalaşması üçün narkomaniya ilə mübarizə mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə əsas məqsəd yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaq və maarifləndirmə işini lazımi səviyyədə aparmaqdır. Diqqətə çatdırılıb ki, narkomanlığa və narkotiklərə qarşı effektiv mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə bu istiqamətdə atılan addımlar, həyata keçirilən mübarizə tədbirləri nəticəsində mühüm uğurlar əldə olunub. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyi qeyd edilib.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təbliği məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

# "Müharibə nəticəsində Yaxın Şərqdə yeni siyasi nizam formalaşacaq"

***"İsrail-HƏMAS münaqişəsi əlbəttə ki, Yaxın Şərqdə formalaşacaq yeni bir siyasi nizamın tərkib hissəsidir. Çünki HƏMAS-ın İsrailə hücumu və qarşılıqlı cavab tədbirləri demək olar ki, beynəlxalq arenada qütblərarası savaşa gətirib çıxarıb. Yaxın Şərqdə proseslər müharibənin genişlənməsini özündə ehtiva edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.***



Onun sözlərinə görə, İranın dəstəyi, ABŞ-ın hərbi gəmilərinin Aralıq dənizinə daxil olması, həmçinin ABŞ-ın İranı hədələməsi İsrail-Fələstin münaqişəsinin bir hissəsidir: "Amma bu münaqişə fonunda III dünya müharibəsinin olacağını düşünmürəm. Göründüyü kimi, İsrail yerüstü əməliyyatlar həyata keçirmək istəyir. Lakin beynəlxalq təpki var. Bu, müharibənin regionda genişlənməsinə gətirib çıxara bilər. İndiki münaqişə İsrail və Qərbin maraqları kontekstində baş verəcək. İranın Yaxın və Orta Şərqdən mövqelərinin tamamilə sıradan çıxarılması gözlənilir. HƏMAS-ın da Qəzzada iflasa uğradılması ehtimal olunur. Nəticədə ABŞ-ın başçılıq etdiyi və İsrailin də dominant olduğu Yaxın Şərq formalaşacaq".

ŞƏRH EDİLDİ

***Ləman Sərraf***



Elçin Bayramlı

# Ağıllı telefonlar ağılsızların əlində olanda

***İfrat elektronika asılılığının sağlamlığa ciddi zərərləri olduğu elm tərəfindən təsdiq olunub. Belə bir deyim var- texnologiya bizi istifadə etməsin, biz texnologiyanı istifadə edək! Bu deyim ən çox da mobil telefon sektoruna aiddir.***

Adi müşahidələr zamanı əksər insanların, xüsusilə də, gənclərin texnoloji məhsulları başqalarına nümayiş etdirmək, onunla öyünmək üçün aldıqları görünür.

"Qonşudan qalma geri" misalı yenicə bazara çıxan bahalı bir cib telefonunu, ailəsinin ya da özünün iqtisadi imkanlarını "zorlayaraq" satın alan, uzun aylar kredit borcu ödəməyə məcbur qalanları hamımız tanıyırıq.

Bu telefonun funksiyalarının çoxundan istifadə edə də bilmir. Lakin, yeri gəldi-gəlmədi onu çıxarıb nümayiş etdirmək, maqnitofon, ya da fotoaparat əvəzi istifadə etmək ona adi gəlir.

Tez-tez modelləri dəyişən smartfonları ehtiyac oldu olmadı almaq konkret psixi problem və bir növ narkomaniyadır. Bəzən insanlarımız 1-ci 2-ci 3-cü 5-ci dərəcəli problemlərini kənara qoyub bütün pullarını 10-cu dərəcəli olan yeni smartfon almağa xərcləyir, çoxu kreditə girir və sonradan problem yaşayır.

Smartfon və proqram təminatı istehsalçıları elə bir sistem qurmağa çalışırlar ki, insanlar bütün günü internetdən ayrıla bilməsinlər. Müşahidələr göstərir ki, çox az adam smartfondan faydalı işlər üçün istifadə edir. Habuki, internet dünyasında faydalı resursların sayı hesabı yoxdur.

Məsələnin tibbi və sağlamlıq tərəfi də var. Mobil telefonların hormonal balanssızlıqlara və xərçəngə səbəb olduğunu göstərən onlarla elmi araşdırma var. Lakin iri telefon şirkətlərinin təzyiqi və təsiri ilə bir çox elmi institutlar, hətta Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri belə bunu etiraf etməkdən çəkinirlər.

İsveç, Rusiya və Kanada alimlərinin müxtəlif vaxtlarda apardığı araşdırmalar mobil telefonla 2 dəqiqəlik danışığın belə "alzeymer", "parkinson", beyin xərçəngi və "multiskleroz" kimi sinir xəstəlikləri yarada bildiyini, genetik dəyişikliyə, yuxusuzluğa, cinsi zəifliyə, sonsuzluğa səbəb olduğunu ortaya çıxardı.

Əlbəttə, bütün bu təhlükələrə baxmayaraq, smartfonlardan imtina etmək mümkün deyil, amma bəzi qaydalara əməl etməklə zərəri azaltmaq olar. Məsələn, danışıq zamanı aparatı başınızdan mümkün qədər uzaqda olmasına çalışmaq lazımdır. Mümkün qədər qısa danışmaq, telefonu arada sağ və sol tərəfə keçirmək lazımdır. Gecə yataq otağında telefon mütləq söndürülmüş olmalıdır. Dalğa zəif olanda və nəqliyyatla hərəkətdə olarkən telefondan istifadə etməmək lazmdır, çünki bu halda radiasiya min dəfə artır. Qanın tərkibində aparılan müayinələrdən bəlli olur ki, maqnit dalğalar erositlərin çökməsinə səbəb olur.

Smartfonların zərəri təkcə fiziki-bioloji deyil, həm də mənəvi-psixolojidir. Sosial şəbəkə asılılığı daha dəhşətli problemdir. Bir çoxları etiraf edir ki, sosial şəbəkələrdən ayrıla bimir, xüsusən tik-toka daxil olanların oradan ayrılması bir neçə saat mümkün olmur.

Azad internet açıq şəkildə psixtron terror, mənəvi deqradasiya platformasıdır. Bura cəmiyyət üçün təhlükə yaradan saxta məlumatlardan tutmuş, hər cür zorakılıq, intihar, zorlama, qətl və sair dəhşətli materiallarla doludur.

Xüsusilə də, uşaqlar smartfonlardan aralı tutulmalıdır. İnternet oyunlarının, bir çox videoların uşaqlarda çox ciddi mənəvi-psixoloji travma yaratdığı faktdır. Son dövr uşaqların həddən artıq əsəbi, aqressiv, söz dinləməyən və hegemon xarakterdə olmasında internetin əvəzedilməz xidmətləri vardır.

Bu səbəbdən mən hesab edirəm ki, xüsusən uşaqlara 16 yaşadək smartfon verilməməlidir. Yalnız sadə telefon vermək olar. Uşaqlar internetdən valideynlərin telefonu və ya komputer vasitəsilə valideynin nəzarəti altında yalnız bilik almaq üçün istifadə etməlidir.

İnternet bıçaq kimidir, onun vasitəsilə minlərlə peşəni, işi, xarici dili öyrənmək də mümkündür, vaxtı mənasız əyləncələrə, zərərli materiallara sərf etmək də. Ağıllı adamlar faydalı tərəflərindən bəhrələnməyə çalışır. Ağıllı olmayanlar üçün isə bu saatlı cib bombasıdır.

Ən son texnologiyalı cihazın sizdə olması vacib deyil. Əvvəlcə baxmalısınız- sizin bahalı smartfona nə dərəcədə ehtiyacınız var- əgər eyni işləri dəfələrlə ucuz cihazda da etmək mümkündürsə. Obrazlı desək, "saqqalınız yoxdursa, saqqal darağına pul verməyə dəyməz".

# İnternet, yoxsa çap mediası?



*Əslində hər ikisi. Nə üçün hər ikisi? Çünki müasir texnologiyalar, internet həyatımıza daxil olub artıq illərdir ikinci bir media növü yaradandan və çap mediasını sıxışdıra-sıxışdıra gətirib bu günümüzə çatdırandan sonra tək yazılı mətbuat deyə də bilmərik.Lakin gəlin bir nəzər salaq: internet mediası nədir, çap mediası nədir? Faydası, yaxşı və pis tərəfləri, mənfi və müsbət cəhətləri, lazımlı və lazımsız olanları ilə...*



## İnternet-xəbər mediası

Bu gün "internet mediası nədir?",- deyəndə hamının ağlına gələn tək xəbərdir. Hər gün agentlik və saytlarda, sosial şəbəkələrdə qarşımıza çıxan minlərlə xəbər var. Bir-birinin təkrarı, bəzən istinadlı, bəzən istinadsız xəbərlər.Bəlkə də bir xəbərlə gün ərzində ayrı-ayrı saytlar, sosial şəbəkələrin təqdimatı ilə 10 dəfə qarşılaşırıq. Çünki indi özü xəbər istehsal edən agentlik və saytlar çox az saydadır. İnsanlara xəbər ötürən "jurnalistlər" özlərinə əziyyət verib yeni xəbər axtarışına çıxmır, oradan-buradan oğurlamaqla xəbər yaradırlar.

Bax elə təkcə xəbərlə əhatə olunduğuna görə də müasir dövrün internet mediyasının adı xəbər mətbuatından savayı heç nə deyil.Yalnız xəbər.Hələ elə xəbərlərlə qarşılaşırıq ki, sadəcə çağırış və reklam xarakterli səhlövhədən və iki aydın olmayan cümlədən ibarət olur.Beləliklə, biz dünyada və ölkədə baş verən hadisələrin yalnız adını bilirik.Nə üçün, nə səbəbdən, hansı əsasla baş verməsindən isə tamamilə xəbərsizik.

## Bugünkü xəbərlər test imtahanına bənzəyir

Bəlkə də elə bundan qaynaqlanır ki, biz necə təhsil alırıqsa, ona oxşar da mətbuat yaradırıq.İllərdir ki, elə internet mediasi ilə yaşıd olan test imtahanları verərkən sadəcə düz variant olaraq a), b), c), d)-dən birini seçirik.Çünki bütün hadisələri, bilikləri avtomatik olaraq əzbərləyib xanalardan birini qaralayırıq.Lakin yeri gələndə müstəqilliyimizin bərpası gününü zaman etibarilə bilsək də, lakin onun mahiyyətindən, o tarixin yaranma səbəblərindən xəbərsizik. İndi məktəblərin yuxarı siniflərində çox az sayda şagird tapılar ki, 2020-ci ildə əldə etdiyimiz Zəfərin mahiyyətini aça bilsin...

Test imtahanlarının tətbiqi ilə yaşıd internet mətbuatını da ona oxşar yaratmışıq. Xəbər veririk, lakin bu xəbərin necə, nə səbəbdən, hansı şəraitdə yaranmasından, mahiyyətindən əsla xəbərimiz olmur.Bəzən heç maraqlanmırıq da, sadəcə sərlövhəni oxuyub keçirik.Elə bu səbəbdən də internet mediasını sərlövhə mediası da adlandırmaq yersiz olmaz.

Hələ bu xəbərləri jurnalistikadan xəbərsiz, mətbuata mətbuat naminə deyil, kiminsə təbliğatı, təşviqatı ilə məşğul olmağa gələnlər hazırlayırsa ( internet mətbuatı belələri ilə doludur), vay bizim halımıza. Yüzlərlə əttökən, səviyyəsiz, mətbuata deyil, şəxsi məqsədlərə xidmət edən, nəyinsə hesabına yazılan, mentalitetə balta çalan, adət-ənənələri zəli kimi soran, ləyaqətin başına daş çırpan xəbərlərlə qarşılaşacaqsan.

İllər öncə Üzeyir Hacıbəyli felyetonlarının birində yazırdı ki, dükançılar köhnə qəzetin içinə darçın, istiot, mixək bükən kimi, hər yazı yazan da görürsən yazdığı sözlərin içinə bir "ideya" bükür. Bəli, bax, sözlərin içinə bükülən "ideyalarla" mətbuatımızı bu günə qoyanlar var...

## Elə çap mediasına da nə etdisə, belələri etmədimi?..

Bu gün ölkənin əsl ziyalı təbəqəsi çap mediasının hazırkı vəziyyətindən narahatdır.Bu, tək bizdə deyil, qonşu Türkiyədə, bütün dünyada belədir.Çap mediası internet mediasına qurban getməkdədir.Bu da böyük ədalətsizlik, haqsızlıqdır.Nəyə görə?Bir qədər də bu barədə.

Jurnalistika araşdırma aparan, təhlil edən və sorğu-sual etməyi bacaran insanların peşəsidir.Bu gün bütün dünyada jurnalistika ən çətin işlərdən biri hesab olunur. O halda ki, bu peşə öz prinsiplərinə uyğun olaraq həyata keçirilsin. Digər tərəfdən, jurnalistika bir çox digər xüsusiyyətləri ilə yanaşı, tarixlə əlaqəsinə görə digər peşələrdən fərqlənir. Jurnalist öz yazıları ilə gələcəkdə yazılacaq tarixin gündəlik qeydlərini aparır; keçmişin səsinə, gələcəyin izinə çevrilir... Əsl jurnalist olanlar bu gün internet mediasında da var, çap mediasında da, bu, sözsüzdür.

Lakin indi xüsusilə də internet mediasında həyatında bir bədii kitab oxumayan, sözün, cümlənin, mətbuatın nə demək olduğunu əsla bilməyən, jurnalistikaya yamaq "jurnalistlər" də çalışır.Onlar çap mediasında işləyə də bilməzlər.Çünki çap mediası bir ələkdir, zamanla ələyir, ələyin içərisində qalanlar bir kənara atılır. Onlar da özlərinə yalnız gözdən, könüldən uzaq kütləvi informasiya vasitələrində iş tapa bilirlər.

Qəzet nədir?Hər bir ziyalının internet və ya televiziyadan aldığı xəbərin izlənməsi, öyrənilməsi üçün vasitədir.Heç vaxt vaz keçə bilməyəcəyi kütləvi informasiya vasitəsidir.Çünki internet mediası tək xəbər verirsə, çap mediası onun mahiyyətini açır, tarixə baş vurur, təhlil edir, araşdırır, nəticə ortaya çıxarır.Ölkədə və dünyada olan hadisələri şərh edir.Oxuculara xəbər vermir, onları xəbərdar edir, məlumatlandırır.Bütün bunlar isə qəzetlərin arxivlərində tarixləşir. Lazım gələndə vərəqləməklə sanki istənilən bir dövrə qayıdır, baş verən hadisələrlə tanış olmaqla həmin dövrün ziyalısına çevrilə bilirsən.



## Arxivdən söhbət düşmüşkən...

Bir-iki il əvvəl "Naxçıvan blokadası" adlı kitabımla bağlı araşdırma aparırdım. Mənə lazım olan Ümummilli Lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı, fəaliyyət göstərdiyi illərlə bağlı sənədlərlə tanışlıq idi. Bunun üçün düşündüm ki, il növbədə Naxçıvan Dövlət Arxivinə müraciət edim. İcazə aldım, araşdırmağa başladım. Lakin mənə lazım olanların demək olar ki, çox az bir hissəsini orada tapa bildim. Muzeyə getdim, ora da arxiv kimi.Sonra bu qənaətə gəldim ki, Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetinin arxivinə müraciət edim.Belə də etdim.1990-1993-cü illərin qəzet dəstlərini qarşıma qoyub vərəqləməyə başladım. Vərəqlədikcə də belə arxivə, əhsən, dedim. Deməli, Ulu Öndərin Naxçıvan dövrü ilə əlaqədar müfəssəl məlumatları, sənədləri, görüş, səfər, çıxışların hər birini bu qəzet vasitəsilə toplayıb nəşr etdirə bildim.Bu barədə kitabda da qeyd etdim ki, "Şərq qapısı" qəzetinin arxivi qorunmalıdır.Çünki o, bir tarixdir.

Nəinki "Şərq qapısı", ölkəmizdə çap olunan sanballı qəzetlərin hər biri araşdırmaçılar üçün həm bu gün, həm də sabah zəngin mənbədir. Belə isə çap mediasının müasir vəziyyəti əsl ziyalı olan hər kəsi narahat etməyə bilmər.

## İnternet mediası bizimdirmi?

Xeyr, bizim deyil. Hansı agentlik, sayt rəhbəri bu gün deyə bilər ki, mənim arxivim var. Birincisi internetdə avtomatik olaraq haradasa 10 ildən bir arxivlər silinir. Olur ki, 10 il əvvəlki yazını internetdə axtarmalı olursan, tap görüm, tapa bilirsənmi? Kim dünyada olacaqlardan xəbərdardır və olmayacaqlara qarantidir? İstənilən bir hadisənin baş verməsi ilə internet arxivlər tarixin qəbiristanlığına yollana bilər, həm də bir an içində. Odur ki, internet mediası bizim deyil, çap mediası bizimdir. Biz nəyi əlimizdə tutub saxlaya biliriksə, o bizim ola bilər.

Mütəxəssislər 2034-cü ilə kimi çap mediasının həlelik aktual olacağını hesablayırlar. Deməli, həmin dövrədək arxivlərimiz də olacaq. Bəs sonra? Çap mediası olmayacaqmı? Olmayacaqsa, arxivlər də olmayacaq. Belə olan halda isə dövlətlərin, xalqların tarixi itmiş olacaq, deyilmi? Bu səbəbdən də yəqin ki, çap mediasının müəyyən bir hissəsinin saxlanmasının vacibliyi də dərk olunacaq.

## "Qəzet oxunurmu?" deyənlər də var...

Bəzən sual verirlk ki, qəzet oxuyursunuz?Çoxları cavab verir ki, əlbəttə. Lakin "indi qəzet oxuyan var?" deyənlər də az deyil. Qəzet oxumaq həm bir alışqanlıq, həm hobbi, həm maraq dairəsi, əsasən də ziyalılıq deməkdir.Qəzet oxumaq əksər insanlarda həm də bir aclıq hissidir.Bu mənəvi aclığı onlar yalnız qəzet oxumaqla dəf edə bilirlər.

Texnologiyanın inkişafına, internet mediasının çap mediasından qabaqda olmasına baxmayaraq yazılı mətbuat hər zaman əl-əl axtarılır və oxunur. Lakin biz etiraf edək ki, dünyada yaxşıları deyil, pisləri əxz etməkdə birinciyik. Bunu geyimimizlə, saçımızla, estetik əməliyyatlarımızla, davranışımızla, yeniliklərə can atmağımızla hər zaman isbatlayırıq.

Lakin dünyada hələ də qəzet oxuyanlar var. Həm də inkişaf etmiş ölkələrdə. Məsələn hesabatlara görə dünyada ən çox qəzet satılan iki ölkə Norveç və Yaponiyadır... Norveçdə hər min nəfərdən 684-ü, Yaponiyada isə hər min adamdan 646-sı hər gün qəzet alıb oxuyur. Tiraj baxımından dünyanın 100 ən böyük qəzetindən 20-si Yaponiyadadır. Onu 18 qəzetlə ABŞ, hər biri 16 qəzetlə Çin və Hindistan izləyir. Maraqlıdır ki, Avropa ölkələri tiraj sıralamasında Hindistandan belə geri qalır... Qlobal tiraj rəqəmlərinə nəzər saldıqda dünyada qəzet oxucularının sayının bir milyardı ötdüyü görünür...

Qonşu Türkiyədə də qəzet oxuyanların sayı az deyil. Bizdə də qəzet oxuyanlar var, həm də tək paytaxtda deyil, regionlarda belə. Redaksiyamıza gələn zənglərə əsasən bunu deyirəm. Hə, regionlardan söz düşmüşkən, biz çap məhsullarımızı regionlara çatdırırıqmı? Əslində bu işi görə biləriksə, onda görərik ki, həqiqətən də çap mediasına maraq çoxdur. Çünki insanlar xəbərlə yanaşı, digər yazıları, təhlil, araşdırmaları da oxumaq istəyirlər. Baxmayaraq ki, internet mediasından sonra qəzet janrlarını da o dünyaya göndərmişik, lakin hələ də əsl jurnalist olanlar onları yaşatmaqdadır. Az olsalar da...

## Çap mediası



## dayanan an tarix dayanar...

Beləliklə, bu qənaətə gəlmək olar ki, dünyada yazılı mətbuat aktuallığını birdəfəlik itirə bilməz. Yəqin o məqama çatdıqda oturub papaqlarını qarşılarına qoyub fikirləşənlər olacaq. Və onlar da bu qənaətə gələcəklər ki, yazılı mətbuatın üzərindən xətt çəkmək tarixin üzərindən xətt çəkmək deməkdir. Ölkənin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrin arxivini vərəq-vərəq cırıb küləyə vermək deməkdir.

İnternet mətbuatına arxayın olub yazılı mətbuatı itirmək xalqın tarixinin itməsinə səbəb ola bilər. Çünki heç kim internet mediasına bel bağlaya bilməz. Sabah nə olacağını heç birimiz bilmirik. Yenə də vurğulayaq ki, bir anın içində bu gün saatlarla qopa bilmədiyimiz internetin, sosial şəbəkələrin yaddaşı silinib gedə bilər. Bəs bu zaman əldə nə qalar? Bu barədə düşünən olubmu?..

Beləliklə, internet, yoxsa çap mediası?..Əslində hər ikisi.Hər ikisi də vacibdir.Hər ikisi günümüzdür, lakin çap mediası dünənimiz kimi, həm də sabahımızdır.

***Mətanət Məmmədova***



# Fransa bəşəriyyət üçün təhlükəli dövlətə çevrilir

*Bu gün dünyanın müxtəlif bölgələrində münaqişələr, müharibələr baş verir. Vəziyyətin ağırlığı o dərəcədə kritik xarakter alıb ki, bəzi siyas-hərbi ekspertlər 3-cü dünya müharibəsinin qaçılmaz olduğunu qeyd edirlər. Təbii ki, 3 - cü dünya müharibəsinin baş verməsi və nüvə silahının işə düşməsi bəşəriyyətin sonu ola bilər. Bunu dünyanın aparıcı dövlətlərinin başçıları bilsələr də, vəziyyətin stabilləşdirilməsi üçün lazımi addımlar atmırlar.*

Əksinə, ABŞ və Avropa ölkələrinin İzrail-Hamas müharibəsində birincinin yanında yer almaları və qızışdırıcı mövqe səsləndirmələri vəziyyətin gərginləşməsinə xidmət edən amillərdəndir. Xüsusilə də, Fransa prezidenti Makronun çağırılmamış qonaq qismində Təl-Əvivdə peyda olması və oradan ampluasına uyğun açıqlamalarla çıxış etməsi, hədələyici bəyanatlar səsləndirməsi dünyaya meydan oxumaq kimi qiymətləndirilir. Çünki Fransa açıq şəkildə müstəmləkə siyasəti aparan və terroru dəstəkləyən, maliyyələşdirən dövlətlər sırasında yer alır. Bu baxımdan, belə bir dövlət dünyada sülhə və təhlükəsizliyə heç bir halda töhfə verə bilməz. Bu yaxınlarda Bakıda keçirilən 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdən olan nümayəndələrin iştirak etdiyi "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda konfransda müstəmləkə altında əzilən xalqların nümayəndələri Fransanı müstəmləkəçiliyə son qoyulmasına çağırış etdilər.





Qvadelupanın Azadlığı Uğrunda Xalq İttifaqının nümayəndəsi Jan Jakob Bisep beynəlxalq konfransda çıxışı zamanı bildirdi ki, dörd əsrdir ki, biz Fransanın təzyiqi altında yaşayırıq: "Ölkəmiz Fransanın müstəmləkəçiliyi dövründən bəri öz haqları uğrunda mübarizə aparır. Fransızlar bizim ərazilərdə işləyir, yerli əhali isə işsizdir. Azadlığımız üçün mitinqlər təşkil edirik ki, səsimiz eşidilsin, amma buna görə həbsə atılırıq. Biz Fransa müstəmləkəçiliyi ilə mübarizəmizi davam etdiririk. Bu ölkənin ədalətsizliyindən çox əziyyət çəkirik". Böyük Britaniyanın "CAGE" müstəqil insan haqları təşkilatının icraçı direktoru Məhəmməd Rəbbani isə konfransda çıxışında bildirdi ki, Fransa müsəlmanların uşaqlarını kriminallaşdırır: "Fransada etirazların strateji olaraq yatırılması trayektoriyası əks olunub. Burada hazırkı irqçilik və islamofobiya siyasətinə qarşı tənqidləri susdurmağa çalışırlar. Müsəlmanların üzərinə müxtəlif cinayətləri atırlar. Onların özünüifadə hüququ tapdalanır, qızların məktəblərdə müsəlman geyimləri geyinməsi qadağan olunur".

Konfrans iştirakçısı Yeni Kaledoniyanın Sosialist və milli KANAK azadlığı cəbhəsinin BMT-dəki nümayəndəsi Xanım Maqalie Tinqal çıxışında Yeni Kaledoniya xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə bəyanatına görə təşəkkür edib:

"Bu, çox güclü və çox doğru bəyanat idi.Fransa çox ikiüzlüdür. Azərbaycan Prezidentinə bizim vəziyyətimizlə bağlı bəyanatına görə təşəkkür edirəm. Biz bu gün Yeni Kaledoniyada çox böyük problemlərlə üzləşirik. Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı 2021-ci ilin 12 dekabrında keçirilmiş referendum pandemiya dövründə təsadüf etdi. Ona görə də biz bunun təxirə salınmasını istədik. Lakin Fransa referendumu saxladı, nəticədə Yeni Kaledoniya əhalisinin 57 faizi referendumda iştirak edə bilmədi. Fransanın bu referendumu saxlaması ikiüzlülükdür. Biz öz hüquqlarımız uğrunda mübarizə aparacağıq. Ona görə də bu məsələni Beynəlxalq Ədalət Məhkəməsində qaldıracağıq".

## Rusiya və Çin Makronun təklifinə qarşıdır

Makron vaxtilə "İslam dövləti" terror təşkilatına qarşı yaradılmış beynəlxalq koalisiya çərçivəsində Hamasa qarşı mübarizəyə başlamağı təklif edib. Hansı formada? Şübhə yoxdur ki, Liviyaya, İraqa və Suriyaya qarşı təşkil olunun kaolisiya forması düşünülür. Belə hal yaranarsa, müharibə ocağının genişlənəcəyi və daha amansız xarakter alacağı şübhəsidir. Rusiya, Çin və müsəman ölkələrinin Makronun iddialarına qarşı sərt təpki göstərmələri və belə bir birliyin yardılması istəyini tənqid etmələri qeyd olunanlara misal ola bilər. Müharibə isə dayanmayacaq. Çünki bundan əvvəl ABŞ prezidenti Bayden də Yaxın Şərqdəki hadisələri şərh edərkən bildirib ki, "hələ müharibəni dayandırmağın vaxtı deyil". ABŞ, Fransa və ümumilikdə Qərbin yanaşması bölgədə sülhü bərpa etmək, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırmaq yox, müharibəni daha da alovlandırmağa yönəlib. Makronun və ümumilikdə Qərbin tərəfləri İzrail-Hamas müharibəsini dayandırmağa çağırmaq əvəzinə müharibənin davam etdirilməsinə dəstək verməsi, Makronun, hətta beynəlxalq koalisiya şəklində müharibənin miqyasını daha da genişləndirməyi təklif etməsi bir daha göstərir ki, Qərb sülhdə maraqlı deyil. Bu, Fransanın xarici siyasətinin nə qədər aqressiv və ağılsız olduğunu yenidən sübut edir - ərazisində milyonlarla müsəlman yaşayan Fransa İsrail və Fələstinə sülh üçün vasitəçilik təklif etmək əvəzinə, müharibə təklif edir.

## Fransa müharibə ocaqlarının sönməsinə imkan verməyən dövlətlərdəndir

Bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilən Fransa dünyanın qarışmasında maraqlı olan və müharibə ocaqlarının sönməsinə imkan verməyən dövlətlərdəndir. Dövlətlər arasında müharibələrin sayı çox olarsa, Fransa gərəksiz və keyfiyyətsiz silah-sursatını müharibə aparan dövlətlərə satmaq imkanı qazanmış olacaq. Düşüncə yoxdur ki, həmin silahlar minlərlə insanın itkisinə yol açır, yüzlərlə yaşayış məskəninin dağıdılıb viran edilməsinə səbəb olur. Xatırlatmaq lazımdır ki, bu gün Fransa dünyada silah ixracatçılarının ilk beşliyindədir. Raket silahı 23 faiz, radioelektronika 22 faiz və aviasiya texnikası 21 faiz təşkil edir. Ölkənin silah istehsal edən şirkətləri dünyanın 130 ölkəsinə silah satışını həyat keçirir. Əsas silah alıcıları Səudiyyə Ərəbistanı, Misir, Hindistan, BƏƏ və Qətərdir. Fransa "bacı"sı hesab etdiyi Ermənistana da silah satışını həyat keçirir. Bununla bağlı razılıq Ermənistanın müdafiə naziri Suren Papikyanın Parisə səfəri zamanı əldə olunub. İlk olaraq Ermənistana 50 zirehli texnika, daha sonra "Minstrel" hava hücumundan müdafiə raketləri gətiriləcək. Fransa hərbi attaşesi Fransanın öldürücü silahlarının Ermənistana tədarükünə nəzarət edəcək. Artıq Fransanın İrəvandakı səfirliyində hərbi missiya yaradılıb, attaşe təyin edilib. Ümumiyyətlə faktlar təsdiq edir ki, Fransanın Ermənistana hərbi dəstəyi hər zaman olub. 4 günlük Vətən Müharibəsində Fransa müxtəlif vasitələrlə Ermənistanı silahlarla təchiz etmişdir. Nədənsə o zaman Paşinyan hakimiyyəti böyük çeşidli silahlar sırasında yer alan PUA-ları qəbul etməkdən imtina edib. Müharibədən sonra Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Davit Şahnazaryan bildirib ki, Fransa Ermənistana PUA-lara qarşı mübarizə sistemləri göndərmək təklif edib, ancaq Paşinyan qəbul etməyib. Görünür, müttəfiqi hesab olunan Rusiyanı özündən incik sala biləcəyindən ehtiyat edib. Çünki o zaman Ermənistan hakimiyyəti indiki kimi Rusiya ilə münasibətləri qarşıdurma səviyyəsində deyildi. Paşinyan rejimi müharibənin ilkin mərhələsində Rusiyaya olan ümidlərini tam şəkildə üzməmişdir. Yəni xəyal edirdi ki, tarixin müxtəlif dönəmlərində olduğu kimi, bu dəfə də Rusiya bütün vasitələrlə onlara Azərbaycana qarşı müharibədə yardımçı olacaq. Lakin Rusiya və digər Ermənistana dəstək verməyi düşünən dövlətlər və qüvvələr Azərbaycanın sərt münasibəti ilə üzləşə biləcəklərindən ehtiyat etdiklərindən, açıq şəkildə Ermənistana kömək etməkdən imtina etdilər.

Nəticədə 2020-ci il noyabrın 10-da Ermənistan təslim olmaq haqqında sənədi imzalamağa məcbur oldu. Məhz Ermənistanın ağ bayraq qaldırmasından sonra Fransa geniş və əhatəli şəkildə Ermənistana siyasi və hərbi dəstəyini artırmağa başladı. Bununla geosiyasi, geostrateji maraqları fonunda Cənubi Qafqazda möcvudluğunu təmin etməyə ümid bəsləyir, digər tərəfdən isə Ermənistana Avropa İttifaqının Qarabağ problemi üzərindən etdiyi yardımların qarşılığında bu maliyyə qaynaqlarını özününküləşdirmək istəyir. Lakin Fransanın ümidlərinin puça çıxacağı şübhəsidir. Çünki regionun lider dövləti olan Azərbaycan heç bir halda Fransanın və ya hansısa digər pozucu qüvvələrin bölgəyə daxil olmasına imkan verməz. Xatırlamaq yerinə düşərdi ki, Fransanın təkidi ilə Ermənistana göndərilən Avropa İttifaqının "sivil" missiyası heç nəyə nail ola bilmədi. Ermənistanın silah-texnika parkını yeniləməyə çalışması da nəticə verməyəcək. Nəticə etibarı ilə 2020-ci il noyabrın 10-da Azərbaycan qarşısında ağ bayraq qaldıran Ermənistan kimi Fransa da qərəzli və terrorçulara xas siyasətinin qurbanı olacaq.

**İ.ƏLİYEV**



# Kişilər ölmək üçün ən radikal yolu seçirlər


Manos Bourdakis/Wikipedia

***Ötən il ölkədə Ədliyyə Nazirliyi tərəfindən 609 intihar hadisəsi qeydə alınıb. Bu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə məlumatında əksini tapıb. Belə ki, intihar edən şəxslərdən 457-i kişi, 152-i qadın olub, o cümlədən 42-si yetkinlik yaşına çatmayan şəxslər olub.***

Statistikaya görə, dünyada hər 3 saniyədə 1 insan intihar edir. Onlardan əksəriyyəti istəyini reallaşdıra bilir, çox az faizi xilas edilir. İnsanları intihara bir çox səbəblər



sürükləyə bilər.İntihar edənlər ən çox 15-29 yaş aralığında olan insanlardır.İntihara cəhdin səbəbləri arasında ən çox psixoloji problemlər və depressiv vəziyyət üstünlük təşkil edir.Bundan əlavə, intihara səbəb olan problemlər arasında işsizlik, ailədaxili münaqişələr, fiziki problemlər, ünsiyyətsizlik, zərərli vərdişlərdən asılılıq, yalnızlıq kimi səbəblər də var.

Məlumat üçün qeyd edək ki, intihar, dünyada yaşanan ölüm halları arasında ilk 10-luqda yer alır.Eyni zamanda gənclər arasında ölüm səbəbləri sırasında da üçüncü yerdə qərarlaşıb. Dünyada hər il təxminən 20 milyon insan intihara cəhd edir və bunun 1 milyonu ölümlə nəticələnir.

### Niyə və nə üçün?

İntihar insanın həyatına son qoymaq üçün icra etdiyi ən radikal davranışdır. İntiharlar iki qrupa bölünür: intihar və intihara cəhd. İntiharlar ölümlə nəticələnsə də, intihar cəhdləri fərdin özünə zərər vermə davranışından ibarətdir, lakin ölümlə nəticələnmir.İntihara dəfələrlə cəhd edən adamlar əslində intihar etmək istəmir, bir növ SOS siqnalı verir.

İntihar hallarının artmasında müxtəlif risk faktorları və amillər var. Bu günədək aparılmış araşdırmalara görə intihar və intihara cəhd hallarına daha çox 15-25 yaş qrupunda rast gəlinir. İntiharlar kişilərdə, intihara cəhdlər isə qadınlarda daha çox olur.Subay fərdlərin intihar və intihara cəhd nisbəti daha yüksəkdir, lakin evli şəxslərin nisbəti də əhəmiyyətlidir.Təhsil səviyyəsinin aşağı olması intihar riski yarada bilər. Psixi xəstəliyin olması və ya psixiatrik diaqnozun olması intihar üçün müəyyənedici faktor ola bilər.

### Qadınlar ölmək istəmir, kişilər əksinə

Əgər ümumiləşdirsək, deyə bilərik ki, qadınların sosial rolu



daha çox inkişaf etdiyi üçün çətin vəziyyətlərin öhdəsindən gəlmək qabiliyyəti daha uğurludur.Kişilərin çətin vəziyyətlərlə daha narahat və səbrsiz olduğu müşahidə edilir.İntihara meyillilik bioloji baxımdan qadınlar arasında daha çox görünsə də, bu insanın duyğularını və məntiqini idarə etmək bacarığı baxımından da əhəmiyyətli vəziyyətdir.Yəni, qadınlar emosional vəziyyətlərdə özünü daha tez ələ almağı bacarır, lakin kişilər barədə bunu demək çətindir.

Kişilərin öhdəsində olan sosial-ictimai yükü, iş həyatının stressi, uzun müddət xroniki stresə məruz qalmaq kimi faktorlarla mübarizə aparmaq onları çox yorur. Sizcə də "kişi ağlamaz", "kişi şikayətlənməz", "kişi deyinməz" kimi stereotiplərlə onların boynuna çox yük qoymuruqmu?Ağlamasına, emosiyasını boşaltmağa icazə vermilməyən kişilərin daxilində yığılıb qalmış emosional reaksiyası bir gün müəyyən bir formada partlayış edir, nəticəsi ya ölmək, ya öldürmək olur.

### İntiharmeyilli insanlara nəzarət - hamılıqla

Əslində, intihara meyil edən insanlar özlərini büruzə verirlər.Onlar həyatdan bezdiklərini, çarəsiz olduqlarını, özünə qapandıqlarını, sosial mühitdən uzaqlaşdıqlarını, işlərində gerilədiklərini, hətta bəzən intihara cəhd barədə düşündüklərini mütəmadi deyirlər.Burada ən böyük məsuliyyət ailənin və sosial çevrənin üzərinə düşür.Onu müşahidə etmək, yaxın olmaq vacibdir.Emosional ünsiyyət baxımından intihara meylli şəxsdən nə qədər uzaq olsanız, bu simptomları qaçırma şansınız bir o qədər yüksək olacaq.Dolayısı ilə nə qədər yaxın olsanız, bu simptomları tutmaq şansınız bir o qədər yüksək olacaq.Onu fikrindən daşındırmaq, intihara cəhd zamanı yaxınlığında olmaq həyatını xilas edə bilər.

Qeyd etdiyim kimi, kişilərin intihar nisbətlərinin qadınlara nisbətən daha çox olmasının səbəbi kişilərin üzərinə düşən məsuliyyətin bir fərd üçün çox olmasıdır.Kişilərin intihara meyilliliyi barədə bu qədər yüksək statistika ilə bağlıdır.Bu vəziyyət daha çox orta və aşağı gəlirli, həmçinin sosial-mədəni səviyyəsi bir qədər aşağı olan ölkələrdə baş verir."Kişi işləməli, ailəsinə baxmalı, kişi güclü olmalıdır" fikri ilə böyüdülən oğlanlar sonralar bu yükə tab gətirə bilmir.Gücünün azaldığını və ailəsini lazımi səviyyədə qoruya bilməyəcəyini düşünəndə intihara sürüklənmə ehtimalı çox böyükdür.Yəni bu ehtimal qadınlarda olduğundan yüksəkdir.

### Kişilər ölüm seçəndə də cəsarətlidir



Kişilərin intihar cəhdlərinin ölümlə nəticələnməsi halları qadınlardan daha yüksəkdir, çünki daha radikal üsullardan istifadə edirlər.Həyatdakı cəsarətləri, qorxmazlıqları ölüm üsulunu seçərkən də diqqətə alınır.

Kişilər və qadınlar intihar edərkən müxtəlif üsullardan istifadə edirlər.Məsələn, kişilər odlu silaha üstünlük verdiyi halda, qadınlar həddindən artıq dozada dərman qəbul edərək, yaxud da özünü asaraq intihar edirlər.Həmçinin, intihara cəhd edən insanların əksəriyyətində yaşamaq instinkti üstünlük təşkil edir.Əgər dərman qəbul etmisinizsə, peşman olduğunuz anda xilas olmaq şansınız var. Odlu silahdan atəşlə intihara cəhd heç bir peşmançılıq fürsəti vermədən nəticələnir.

Oğlanlar kiçik yaşlarından elə böyüdülür ki, onlar heç bir emosiyanı ifadə edə bilmirlər, heç bir ağrını rahat yaşaya bilmirlər.Cəmiyyətin stiqması kişilərin ağlamasına imkan vermir.Hətta ən əzizi öləndə belə kişilər ağlamağı zəiflik kimi anladığı üçün ağlamırlar, o ağrı, dərd onun içində hər gün böyüyür, dərinləşir.Kişilərin qadınlardan daha tez ölməsi, saçlarının daha tez ağarması, ürək xəstəliklərindən daha çox əziyyət çəkməsi də bu davranışın nəticəsində yaranır.

Araşdırmalara görə yaz və yayın ilk aylarında intiharlar daha çox olur. Həddindən artıq istilər orqanizmin elektrolit balansını pozaraq, xüsusilə psixi problemləri olan insanlarda intihara meyilliliyi artırır. Xüsusilə, 15-18 yaş qrupunda olan gənclər və 55-60 yaş qrupunda olanlar daha çox meyilli qruplardır. Gənclərdə şəxsiyyət axtarışı və özünüdərk zamanı travmatik münasibət, yaşlılarda isə tənhalıq hissi intihara rəvac verir.

### Kişiləri çox yükləməyin

İntihar, əslində, bir SOS siqnalıdır – bir növ intihara əl atan adamın yardım istəmək üsuludur. Hər nə qədər kişilərin intiharı ilk cəhddə "uğurlu" alınsa da onlar əslində ölümü seçənədək çox "get-gəl"də qalırlar. Ölümlərindən sonra ailələrinin keçəcəyi çətinliklər, yaşayacaqları problemlər, övladlarının gələcək həyatı – hamısını düşünürlər əslində. Onlar çox yüklənirlər – həm iş yerində, həm ailədə, həm də cəmiyyətdə. Həmişə güclü görünməyə məcbur edilirlər, gücləri tükənsə belə.

Sərt iş rejimi, stress və qorxu altında keçən ömür, qidalanma və tv-lərin əvəzsiz "fəaliyyəti" intihar hallarının artması üçün lazımı zəmin yaradır. Bir gün özünüz, övladınız və ya hansısa bir yaxınınız intiharçı olmasın deyə stressdən uzaq olun, onları da stressli həyata məhkum etməyin, çünki stress beyini narahat edən əsas faktordur.

Televiziyada yalnız ruhunuzu dincəldən verilişlərə baxın, qanqaraldan cinayət verilişləri, başqalarının problemləri ilə efirləri işğal edən sosial layihələrlə auranızı mənfi enerjiyə təslim etməyin. Xəbər saytlarında, qəzetlərdə cinayət, intihar, qətl xəbərlərini oxumayın, efirdə izləməyin. Daha çox yaşaya, ailənizlə daha çox vaxt keçirə bilmək üçün...

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması " istiqaməti çərçivəsində hazırlanıb.*

# İkiqat "obrazovannı"lar

Yaxınlarımdan birinin evində qonaq idim. Divanda uzanan oğlan anasına:

-Ay ana, o pəncərəni aç, çox istidir.

Ana pəncərəni açdı. Bir xeyli vaxtdan sonra oğlan yenidən:

-Ay ana, sən niyə pəncərəni açmısan?

-Ay oğul, bəs sən dedin də.

-Mən o xırdanı dedim ki, bir az hava gəlsin.

Ana:- Ay, düz deyirsən, skvazniyak eləyir, indicə kamarı da dolduracaq içəriyə, tamam, "qoy pəncərəni örtüm, fortuçkanı açım",- deyə pəncərəyə yaxınlaşdı.

Oğlan yenidən səsləndi:

-Ana, ayaqdasan, sən Allah, şarjım bitir, al bu telefonu, adapter otağımdadır, tax toka, bacıya mesaj yazacağam. Mənə də bir paduşka, adyal gətir.

Ana telefonu alıb, otağa keçdi və oradan deyindiyini eşitdim:

-Yüz dəfə dedim ki, ay kişi, bir montyor gətir, bu evin tokuna baxdır, hara taxım bu telefonu axı zaryadka yığsın, razetkaların heç biri işləmir. Mən bu evdə uje dəli oluram.

* * *

Ana-balanın bu yarı rus, yarı türk dioloqu məni yamanca təbimdən çıxardı. Birinci hirsimi oğlana tökdüm, dedim bizim vaxtımızda valideynin yanında nəinki uzanmaq, hətta onu işə buyurmaq böyük qəbahət sayılardı.

Sonra da üzümü hər ikisinə tutub, "siz bilirsiniz ki, səhərdən bəri danışdığınız on sözün səkkizi rus, türk sözləridir",- dedim. Hirslə anadan soruşdum:

-Fortuçka nə deməkdir?

-Fortuçka elə fortuçkadır da, balaca pəncərə, sənin də işin qurtarıb ey, bizə sorğu-sual edirsən.



Oğlana üz tutdum:

-Şarj nədir, adapter nədir?

Cavab verdi ki, adapter telefona şarj yığır.

Bu sorğu-sualımı görən ana mənə nə desə yaxşıdır?

-Sənin də sosyeteliyin tutmasın, gəl, çay içək.

Onlara son sözüm belə oldu: Sizi gördüm, "Molla Nəsrəddin"in bir əsr əvvəlki "Bizim "obrazovannı"larını xatırladım. Hələ felyetonu da onlara söylədim."Qofta"ya xeyli güldülər. Özləri duran yerdə nə üçün "qoftaya?..

Axırda dedim ki, siz lap elə ikiqat obrazovannısınız ki

***Mətanət Məmmədova***

FELYETON

SON SƏHİFƏ

# SƏS

27 oktyabr
2023-cü il

# Dönərxanalar insan sağlamlığı üçün ölüm saçır!

## Mütəxəssislər ilginc faktlar açıqladılar



Xəbər verdiyimiz kimi, oktyabrın 24-də Binə qəsəbəsində yerləşən 88, 117, 121 və 149 nömrəli tam orta məktəblərdə təhsil alan 20 şagirddə müxtəlif vaxtlarda qida mənşəli narahatlıq və ürəkbulanma əlamətlərinin müşahidə edilməsi haqqında məlumat daxil olub. Qeyd olunan təhsil müəssisələrinin müxtəlif siniflərində təhsil alan şagirdlərlə bağlı onların valideynləri (bir neçə şagirddə narahatlıq evdə müşahidə olunub), məktəblərin rəhbərliyi və "Məktəblinin dostu" layihəsinin əməkdaşları tərəfindən dərhal təcili-tibbi yardıma müraciət olunub. İlkin tibbi yardım göstərildikdən sonra şagirdlər müvafiq səhiyyə müəssisəsinə yerləşdirilib. Onlar müvafiq müayinə və müalicə proseduruna cəlb olunub. Məktəblərin rəhbərliyi tərəfindən aidiyyəti dövlət qurumlarına və məktəbdə halı pisləşən şagirdlərin valideynlərinə də məlumat verilib. Şagirdlər dərsə gələrkən və məktəbdən evə gedərkən Binə qəsəbəsi ərazisində fəaliyyət göstərən iaşə xidməti məkanlarından birindən dönər alıb yediklərini bildiriblər. Bəs, bu dönərxanalarla necə mübarizə aparılmalıdır? Onların qarşısı necə alınmalıdır? SİA mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov və qida üzrə baş mütəxəssis Ağa Salamovun fikirlərini öyrənib.



Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov: "Dönərxanalar cəmiyyətin bəlası olmaqda davam edir. Mən AQTA-da iki il İctimai Şuranın üzvü olaraq dəfələrlə rəhbərlik qarşısında məsələ qaldırdım ki, dönərxanalarla bağlı bir iş görək, monitorinq aparaq, burada şəffaflıq təmin edək və əgər lazım olsa, köməkləşib nümunəvi dönərxanalar yaradıb onu təbliğ edək ki, digər dönərxanalar sıradan çıxsın. İstehlakçı hüquqları arxa planda qalıb. Belə bir vəziyyətdə dönərxanalar xüsusilə gənclərin zəhərlənmə mənbəyidir. Vaxtaşırı DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi regionlarda at, eşşək və murdar heyvan ətlərinin Bakıya daşınması ilə bağlı işlər görür. Müşahidə etsəniz, bir çox dönərxanalarda yalançı kağızlar asılıb. Yəni, guya bu ətlərin mənbəyi məlumdur. Onlar qanuni dönər hazırlayan yerlərdən bir dəfə mal alıb həmin bu kağızı oradan asırlar. Heç kəs də sübut edə bilməz ki, o kağız bu bişən dönərlərə aiddir.

Dönərlərin insanları zəhərləmə amillərindən biri də təkcə dönərin hazırlandığı quş və mal ətinin mənbəyi deyil, eləcə də dönərin özünün hazırlanmasındakı sərt texnologiyadır. Yəni, dönərin üst tərəfi qaşınır, bişmiş olur. İçərisinə isə təzə-təzə istilik keçir. Heyvan bədənində olan bütün xəstəliklər həmin təzə istilik keçən mərkəzdən şiş üzrə axıb aşağıdakı qaba tökülür. Dönərçi isə üstdən kəsdiyi qızarmış əti həmin suya qarışdırıb istehlakçıya təqdim edir. Bütün heyvan xəstəlikləri insana buradan keçir. Ona görə də dönərlərin hazırlamasında ayrıca bir texnologiya var.



Ölkədə dönərləri qanuni yolla hazırlayan iki müəssisə mövcuddur. Bunlar "Səhliyalı" və "AzProtein Foods Group" şirkətləridir. Onlara bu barədə icazə verilib. Çünki onlarda dönər hazırlamaq üçün xüsusi bahalı aparatlar var. Burada dönərlər hazırlanır, şişlənir və xüsusi qablaşmada maşınlarda dönərxanalara gətirilir. Azərbaycandakı dönərxanaların 0,5 faizi belə buradan dönər almır. Bu işlərin montorinqi aparılmalıdır. Biz AQTA-nın saytına baxsaq görərik ki, Azərbaycanda qida zəhərlənmənin statistikası ümumdünya göstəricisindən 700 dəfə az göstərilir. Bunlar niyə gizlədilir? Nə üçün zəhərlənən şagirdlərə və onlara kompensasiya verilmir? Dövlət orqanları bu barədə bir addım belə atmaq istəmirlər. Yaxşı ki, KİV-lər var və bu məsələləri gündəmə gətirirlər. Bütün bunlarla mübarizə aparılmalı və belə dönərxanaların fəaliyyətinin qarşısı alınmalıdır".

Qida üzrə baş mütəxəssis Ağa Salamov: "Qida zəhərlənməsi mikrobioloji çirklənmədən əmələ gəlir. Bu da ətin və ət məhsullarının soyuq qida zəncirində qırılması nəticəsində baş verir. Yəni, ətin daşınması, saxlanması, emalı və təqdimatı düzgün şəkildə olmadıqda qida zəhərlənməsi halları baş verir. Bu da ucuz dönər və ucuz kabab seti kimi məhsullardan qaynaqlanır. Məsələn, 1 manat 50 qəpiklik dönərlər var ki, mənşəyi bəlli deyil. Çünki elə pomidorun kilosu 4-5 manatdır. Sən bu dönəri necə 1.50 AZN-a sata bilərsən? Bəs, bu adamlar nə qazanır? Deməli bunların ətlərinin mənşəyi bəlli deyil.

Zəhərlənmə halları çox vaxt toyuq dönərindən baş verir. Ət dönərindən zəhərlənmə nadir hallarda olur. Çünki ət bahadır və bir çox insan toyuq dönərinə üstünlük verir. Ona görə də əmtəə nişanı olan yerlərdən dönər almaq lazımdır. Hər yol qırağında satılan dönəri alıb yemək olmaz. Çünki günəş şüaları altında olan mayonez və ət dönəri ağırlaşdırır. Bu zaman da çirklənmə baş verir. Bunu qəbul edən və immun sistemi zəif olan hər kəs zəhərlənir".

*Ayşən Vəli*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# POS-terminal quraşdırılmayan restoranlar cəzalandırılır?

*"Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 219 nömrəli qərarına əsasən, ölkə ərazisində dövriyyəsindən və ərazisindən asılı olmayaraq, ƏDV ödəyicilərinin bütün təsərrüfat subyekt və obyektlərində POS-terminal olması icbaridir".*



HÜQUQŞÜNAS AÇIQLADI

Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev deyib. Onun sözlərinə görə, rüblük dövriyyəsi 2 000 manatdan artıq olan bütün vergi ödəyiciləri, həmçinin turizm, səhiyyə, istirahət, avtomobil, nəqliyyat, idman, mebel və s. hamısı POS-terminal quraşdırmağa məcburdur: "Əgər xidmət aldığınız hər hansısa obyektdə POS-terminal yoxdursa, kartdan karta ödəniş üsulundan istifadə olunur ki, bu da tamamilə əsassız və qanunsuzdur. Buna görə vətəndaş həmin obyekti Vergilər Xidmətinə şikayət edə bilər".

Şamil Paşayev sözlərinə belə davam edib: "POS-terminalların quraşdırılması qaydalarını pozan və nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə görə, vergi ödəyicisinə təqvim ili ərzində ilk dəfə yol verildikdə 1000 manat, ikinci dəfə 3000 manat məbləğində, təqvim ili ərzində belə hallar üçüncü və daha çox təkrar olduqda isə 6 000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. POS-terminalın olmaması vətəndaşların ƏDV çekini almasına əngəl yaradır bu da istehlakçıların hüquqlarının pozulmasıdır".

*Ayşən Vəli*


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000